**İslamda kəlam məktəbləri ilə tanışlıq**

**Namiq Babaxanov**

# GİRİŞ

Bu gün dünyada mövcud olan dörd böyük din — Buddizm, Hinduizm, Xristianlıq və İslam — dünya əhalisinin böyük əksəriyyətini özündə birləşdirir. Müasir statistik göstəricilərə əsasən, səkkiz milyardlıq dünya əhalisinin təqribən yeddi milyardı bu dörd dinə mənsubdur. Təxminən üç milyard insanın yarısı Buddizmə, digər yarısı isə Hinduizmə etiqad edir. Dörd milyard insanın təqribən yarısı Xristianlığa, digər yarısı isə İslama inanır. Dünya əhalisinin qalan hissəsi — təxminən bir milyard nəfər — Yəhudilik, Deizm, Bəhailik və digər dini və ya fəlsəfi istiqamətlərə mənsubdur.

Dinşünaslıq baxımından maraqlı məqam ondan ibarətdir ki, hazırda dünyada 15 - 20 əsas təsnifata bölünən təxminən 75 – 80 din və inanc sistemi mövcuddur və bunlar içərisində ən çox daxili parçalanmaya məruz qalan məhz bu dörd böyük dindir**.** Bu parçalanmanın əsas səbəbləri şübhəsiz ki, ardıcıllarının çoxluğu, müxtəlif mədəniyyətlərə yayılması və zamanla ortaya çıxan siyasi, sosial və intellektual faktorların təsiridir.

İslam dini də bu ümumi tarixi qanunauyğunluqdan kənarda qalmamışdır. İslamın ilk əsrlərində meydana çıxan ixtilaflar sonrakı dövrlərdə fiqhi məzhəb**,** kəlam məktəbi**,** ideoloji istiqamət**,** təriqət **və** firqələr şəklində sistemləşmişdir. Tarixi baxımdan İslam ümməti daxilində ən böyük və fundamental ayrılma sünni və şiə qollarının formalaşmasıdır. Bu iki əsas qol da zamanla öz daxilində müxtəlif məzhəblərə və cərəyanlara bölünmüşdür. Bununla yanaşı, tarixdə mövcud olmuş, lakin bu gün ardıcılları qalmayan və ya zəifləmiş bir çox firqə, təriqət və cərəyanlar da olmuşdur.

Bu gün mövcud vəziyyətə baxdıqda görürük ki, sünni müsəlmanlar əsasən Hənəfi, Maliki, Şafei, Hənbəli, İbadi və müasir dövrdə meydana gəlmiş Sələfi məzhəblərinə ayrılırlar. Şiə müsəlmanlar isə Cəfəri, Zeydi, İsmaili və Ələvi məzhəblərinə mənsubdurlar. Qeyd etmək lazımdır ki, bu bölgülərin hamısı əsasən fiqhi məktəblər əsasında formalaşıb. Əgər bir məzhəbin fiqhi məktəbi yoxdursa, onu klassik mənada məzhəb adlandırmaq çətindir; belə halda o, daha çox ideoloji xarakter daşıyan bir dini cərəyan sayılır.

Məsələn, burada adı çəkilsə də, şiə qollarından olan Ələvilərin müstəqil fiqhi məktəbi mövcud deyil. Onlar ümumiyyətlə klassik fiqhi sistemi qəbul etmirlər. Bu səbəbdən Ələvilik daha çox dini-nənəvi bir təriqət kimi qiymətləndirilirlər. Digər tərəfdən, Sələfiliyin də ayrıca fiqhi məktəbi yoxdur. Sələfilər əsasən Hənbəli

fiqhinə istinad edir və buna öz baxışlarına uyğun müəyyən əlavələr edirlər. Bu baxımdan Sələfilik də məzhəb deyil, sadəcə dini-ideoloji-siyasi bir cərəyandır.

Amma ümumiləşdirilmiş şəkildə yanaşdıqda, bu gün müsəlmanlar fiqhi və tarixi baxımdan təqribən on məzhəbə bölünsələr də, etiqad və kəlam aspektindən faktiki olaraq cəmi altı əsas kəlam məktəbi mövcuddur. Bunlar: Mötəziliyyə, Əşəriyyə, Maturidiyyə, Əsəriyyə, İbadiyyə və İmamiyyədir. Bu araşdırmada əsas diqqət məhz qeyd olunan kəlam məktəblərinin formalaşma prosesi, metodoloji yanaşmaları və əsas doktrinal mövqelərinin təhlilinə yönəldiləcəkdir.

Mötəziliyyə kəlam məktəbinin ardıcılları müasir dövrdə demək olar ki, mövcud olmasa da, bu məktəb İslam düşüncə tarixində rasional yanaşmanın təşəkkülündə mühüm rol oynamış, xüsusilə də digər kəlam məktəblərinin meydana gəlməsinə və metodoloji çərçivələrinin formalaşmasına ciddi təsir göstərmişdir. Məhz bu səbəbdən Mötəziliyyə məktəbi ayrıca və ətraflı şəkildə araşdırılacaqdır.

Eyni zamanda, statistik və sosioloji göstəricilər baxımından da qeyd etmək lazımdır ki, müasir dünyada ən geniş yayılmış dini-fiqli və etiqadi kombinasiyalar əsasən iki əsas xətt üzərində cəmləşir: birincisi, Sünni Hənəfi fiqhi ilə Maturidiyyə kəlam məktəbinin vəhdətindən ibarət olan xətt; ikincisi isə Şiə Cəfəri fiqhi ilə İmamiyyə kəlam məktəbinin birliyində olan xəttdir.

Hazırda dünyada mövcud olan təqribən iki milyardlıq müsəlman əhalinin təxminən səkkiz yüz milyonu Sünni Hənəfi–Maturidi ənənəsinə mənsubdur. Bu göstəricinin təqribən yarısı qədərini isə Şiə Cəfəri–İmamiyyə xəttini təmsil edən müsəlmanlar təşkil edir.

**İslamda parçalanmanın başlanğıc mərhələsi**

İslam daxilində parçalanmaların başlanğıcı barədə tez-tez irəli sürülən yanlış bir iddia mövcuddur. Bəzi tədqiqatçılar bu parçalanmanın yalnız Peyğəmbərin (s) vəfatından sonra baş verdiyini iddia edirlər. Halbuki tarixi və Qurani faktlar göstərir ki, İslam cəmiyyətində daxili ixtilafların toxumları hələ Peyğəmbərin (s) sağlığında mövcud idi, lakin həmin dövrdə bu ixtilaflar açıq məzhəb və firqə formasını almamışdı.

Buna ən bariz nümunə münafiqlərdir. Hələ müsəlmanların Məkkə dövründə sayı barmaqla sayılacaq qədər az olduğu bir zamanda Qurani-Kərim münafiqlərin mövcudluğunu açıq şəkildə bəyan edir: “Allah iman gətirənləri də, münafiqləri də mütləq tanıyır.” (Ənkəbut, ayə 11) Münafiqlər zahirdə müsəlman olub, qəlblərində İslama qarşı kin və nifrət bəsləyən şəxslərdir. Onlar qəlbən müsəlman deyildilər, yalnız məcburiyyət səbəbindən zahirdə İslamı qəbul etmişdilər. Zahirdə İslamı qəbul etdiklərinə görə isə hüquqi baxımdan müsəlman sayılırlar.

Mədinə dövründə isə münafiqlərin sayı və təsir dairəsi daha da artmışdı. Tarixi mənbələrə görə, Təbuk səfəri zamanı Peyğəmbərin (s) Mədinədən uzaq olmasından istifadə edərək şəhərdə daxili çevriliş planları belə qurulmuşdu. Peyğəmbərin (s) göstərişi ilə Əli ibn Əbu Talibin (ə) Mədinədə qalması bu planların qarşısını aldı.

Biz münafiqləri ayrıca məzhəb və ya cərəyan kimi təqdim etmirik, çünki onlar zahirdə ayrı və parçalanmış müsəlmanlar kimi görünmür, daxillərində isə inkar və düşmənçilik bəsləyirdilər. Lakin tarixi reallıq budur ki, İslam cəmiyyətində parçalanmanın ilkin psixoloji və siyasi əsaslarını məhz onlar formalaşdırmışdır**.**

Bunlardan əlavə, erkən dövrdə mövcud olmuş daha bir xətt də vardır ki, bu da Nasibilikdir. Nasibilər Peyğəmbərin (s) dövründə mövcud olmuş, lakin düşmənçiliklərini açıq şəkildə ifadə etməmişlər. Onlar zahirdə müsəlman kimi görünsələr də, Peyğəmbərin (s) Əhli-beytinə, xüsusilə də İmam Əliyə (ə) qarşı dərin və köklü düşmənçilik mövqeyi sərgiləmişlər.

Bədr, Ühüd, Xəndək və digər döyüşlərdə müşriklərlə müsəlmanlar arasında baş verən qarşıdurmalarda əsas cəngavər kimi çıxış edən Əli ibn Əbu Talib (ə) çoxsaylı müşrikləri məhv etmişdi. Məhz bu səbəbdən həmin döyüşlərdə öldürülən müşriklərin sonradan müsəlman olmuş ailə üzvləri tərəfindən ona qarşı gizli və ya açıq düşmənçilik münasibəti formalaşmışdı. Qədir-Xum hadisəsində Peyğəmbərin (s) ilahi göstərişlə İmam Əlini (ə) özündən sonra canişin elan etməsi isə bu gizli düşmənçiliyin daha da dərinləşməsinə səbəb olmuşdur. Peyğəmbərin (s) vəfatından sonra isə ilk siyasi fürsətlərdə bu düşmənçilik açıq şəkildə ortaya çıxmışdır.

Nasibilər Peyğəmbərin (s) Əhli-beytinə qarşı açıq düşmənçilik edən, bu düşmənçiliyi hətta qarşı tərəfi fiziki olaraq məhv etməyə qədər apara biləcək mövqedə olan müsəlmanlardır. Nasibilər tarix boyu müxtəlif cərəyanların daxilində radikal və emosional bir qol kimi mövcud olmuşdur. Bu səbəbdən də onlar ayrıca və müstəqil bir cərəyan kimi qiymətləndirilmirlər.

## Quranda cəmi yeddi inanc ardıcıllarından bəhs olunur

Yuxarıda qeyd etdiklərimizə başqa bir nümunə də göstərmək olar. Belə ki, Qurani-Kərimdə yeddi din və inanc ardıcılından söz açılır: yəhudilər, xristianlar, məcusilər, sabeilər, bütpərəstlər, materialistlər və müşriklər. Burada xüsusilə diqqəti cəlb edən anlayış "müşriklər"dir. Allahın təkliyini qəbul etməyən və Ona şərik qoşan hər kəs müşrik hesab olunur. Əslində, bir çox din və inanc ardıcılları bu kateqoriyaya daxil edilə bilər. Quranda onlar ayrıca qeyd edilsə də, müşriklik konkret bir dinlə məhdudlaşmır, bu, müxtəlif dinlərin ardıcılları arasında rast gəlinə bilən ümumi bir anlayışdır.

## İslamın ilkin dövründə daxili cərəyanlar

Qeyd etdiyimiz kimi, İslamda parçalanma nə qəfil şəkildə, nə də yalnız Peyğəmbərin (s) vəfatından sonra baş vermişdir. Bu proses mərhələli xarakter daşımış, əvvəlcə gizli psixoloji və emosional zəmin üzərində formalaşmış, sonradan isə açıq məzhəbi strukturlar şəklində özünü göstərmişdir. Tam formalaşmış cərəyanlar isə sonrakı dövrlərdə meydana çıxmışdır.

Əsas mövzumuza başlamazdan öncə, İslamın ilkin dövründə yaranmış konkret cərəyanlara nəzər salmaq məqsədəuyğundur. Tarixi mənbələr göstərir ki, İslam Peyğəmbərinin (s) sağlığında belə daxili təmayüllər və ilkin ideoloji meyllər mövcud olmuş, lakin onlar hələ sistemli və müstəqil məzhəb formasını almamışdır. Bu cərəyanlardan biri "Qulat" adlanan ifratçı istiqamət olmuşdur.

## Qulat cərəyanı

"Qulat" termin olaraq "həddi aşmaq", "ifrat etmək" mənasını daşıyır və İslam terminologiyasında Peyğəmbər (s), İmam Əli (ə) və sonrakı imamlar barəsində ilahilik və ya fövqəlbəşər məqamlar iddia edən qruplara aid edilir.

Qulat cərəyanının əsas xüsusiyyətləri bunlardır: Özlərindən uydurulmuş batini və ezoterik təvillər; Peyğəmbər (s), İmam Əli (ə) və imamlar üçün ilahi sifətlərin isnad edilməsi; Şəriətin zahiri hökmlərinin ləğv edilməsi və onların yalnız batini mənalarla əvəz olunması; Gizli elmə, qeyri-şəri biliklərə və xüsusi seçilmişliyə dair iddialar.

Peyğəmbərin (s) dövründə ortaya çıxmış erkən Qulat istiqamətlərindən biri "Hululiyyə" olmuşdur. Bu cərəyan ilahi nurun Peyğəmbərdə hulul etdiyini və onun fövqəlbəşər bir varlıq olduğunu iddia edirdi.

İmam Əlinin (ə) dövründə isə "Səbaiyyə" cərəyanı meydana çıxmışdır. Bu qrupun başçısı Əbdullah ibn Səba olmuş və o, ilahi nurun İmam Əlidə hulul etdiyini iddia etmişdir. Sonrakı dövrlərdə Bəyan ibn Səman tərəfindən qurulan "Bəyaniyyə", qrupu Qulat düşüncəsinin müxtəlif formalarını təmsil etmişdir. Həmçinin İmam Cəfər Sadiqin (ə) dövründə "Xəttabiyyə" cərəyanı ortaya çıxmış və bu qrup İmamı ilahiləşdirməyə cəhd göstərmişdir.

Əsas məqam ondan ibarətdir ki, Peyğəmbər (s) və bütün məsum imamlar Qulat cərəyanlarını qətiyyətlə rədd etmiş və onları İslamdan kənar hesab etmişlər. Çünki Allah tərəfindən onlara verilmiş həqiqi məqamlar kifayət idi və ifrat iddialar şəriətin hüdudlarından kənara çıxmaq mənasına gəlirdi.

Məşhur alim Şəhristani "Əl-Miləl vən-Nihəl" əsərində bu cərəyanların yaranmasını İslamda mövcud olan dərin teoloji məfhumların zəif imanlı şəxslər üzərində

yaratdığı cazibə ilə əlaqələndirmiş, eyni zamanda xristianlıqdakı hulul və ilahiləşdirmə ideyalarının da təsirini qeyd etmişdir.

Beləliklə, Qulat cərəyanı İslam tarixində ilk ortaya çıxan ifratçı daxili təmayüllərdən biri olmuş və sonrakı əsrlərdə müxtəlif adlar altında mövcudluğunu davam etdirmişdir. Onun varlığı İslam daxilində kəlam məktəblərinin formalaşmasının zəruriliyini ortaya qoyan əsas tarixi amillərdən biri olmuşdur.

**Boğat cərəyanı**

İslamın ilk illərindən etibarən müsəlman cəmiyyətində münasibətlər yalnız iman–küfr oxu ilə məhdudlaşmamış, eyni zamanda itaət–etiraz, haqq–üsyan, legitim hakimiyyət–qanunsuz qiyam oxları üzrə də müxtəlif qruplar və statuslar formalaşmışdır. Bu statuslardan biri də Boğat cərəyanıdır.

“Boğat” termin olaraq “haqqa qarşı etiraz edən, qiyam qaldıran” mənasını ifadə edir və küfrə düşmədən, müsəlman olaraq qalan şəxslərə aid edilir. Bunlar Peyğəmbərə və ya məsum imama etiraz edən, onun göstərişlərini qəbul etməyən və ona qarşı çıxan müsəlmanlardır. Bu baxımdan Boğat anlayışı mahiyyət etibarilə Nasibilikdən fərqlənir.

Nasibilər Peyğəmbərə və Əhli-beytə açıq düşmənçilik edən, onları lənətləməyi, hətta fiziki olaraq aradan qaldırmağı legitim sayan şəxslər olmuşdur. Nasibilik ideoloji bir məzhəb deyil, düşmənçilik üzərində qurulmuş nifaq mövqeyidir. İslam tarixində bu mövqenin simvolik nümunələri kimi Əbu Süfyan, Müaviyə və Yezid xətti göstərilir.

Boğat isə bundan fərqli olaraq, Peyğəmbərə (s) və ya imama ideoloji düşmənçilik etmir, onların dini və ilahi məqamlarını tanıyır və qəbul edir. Lakin siyasi itaəti pozur və tanıdığı haqq rəhbərliyə qarşı çıxır. Buna baxmayaraq, Boğat statusunda olanlar da dindən çıxmış hesab edilmirlər.

Bu anlayışın ilkin işarələri Peyğəmbərin (s) dövründə mövcud olmuşdur. Lakin terminoloji baxımdan Boğat anlayışı daha çox Cəməl döyüşündə İmam Əliyə (ə) qarşı çıxan qüvvələr kontekstində formalaşmışdır. Süffeyn və xüsusilə Nəhrəvan hadisələrində isə İmam Əliyə (ə) qarşı çıxanların bir qismi artıq Nasibilik və Xəvariclik xəttinə yaxınlaşmışdır. Əhəmiyyətli məqam ondan ibarətdir ki, Boğat xüsusi ideoloji firqə deyil, daha çox siyasi-hüquqi statusu ifadə edir. Münafiqlik açıq mübarizə mərhələsinə keçdikdə, onun ən ağır forması Nasibilik, nisbətən yüngül forması isə Boğat statusu kimi təzahür edir.

## Xəvaric cərəyanı

“Xəvaric” termin olaraq “müsəlmanlardan ayrılan müsəlmanlar” mənasını ifadə edir. İslam tarixində ilk sistemli və rəsmi dini-siyasi məzhəb kimi qəbul edilən cərəyan məhz Xəvaric olmuşdur. Xəvaric İmam Əlinin (ə) xilafəti dövründə, Süffeyn döyüşündən sonra baş verən Həkəmeyn (arbitraj) hadisəsi nəticəsində onun ordusundan ayrılan və “Hökm yalnız Allaha məxsusdur” şüarını yanlış şəkildə ideoloji əsas halına gətirən qrupdur. Onlar bu şüarı zahiri, kontekstdən qoparılmış formada tətbiq edərək İmam Əlini (ə), onun tərəfdarlarını və ümumilikdə özlərinə müxalif olan müsəlmanları təkfir edən ifratçı bir cərəyana çevrilmişlər.

Xəvaricin əsas etiqadi prinsipləri bunlardır: Böyük günah insanı imandan çıxarır və küfr sayılır; Günahkar müsəlmanın qanı halaldır; Zalım hakim dərhal devrilməlidir; İmamət üçün Qureyş nəsli şərt deyil; Bu prinsiplər Xəvarici sərt təkfirçi, zahiri literalist və radikal siyasi qiyamçı bir məzhəbə çevirmişdir.

Xəvaric sonrakı dövrlərdə bir çox qollara ayrılmışdır. Bunlara Əzariqə, Nəccadə, Sufriyya, Acarida, Beyhəsiyə və İbadiyyə daxildir. Bu gün klassik mənada Xəvaric məzhəbi mövcud deyildir və yalnız İbadiyyə qolu qismən davam etmişdir. Lakin müasir İbadilər erkən Xəvaric etiqadından ciddi şəkildə uzaqlaşmış, təkfirçi tərk etmişlər.

Şiə və sünni mənbələrinin demək olar ki, hamısında Xəvaric cərəyanı sərt şəkildə tənqid edilmişdir. Şəhristani “əl-Miləl vən-Nihəl”, Bağdadi isə “əl-Fərq beynəl-firəq” əsərində Xəvarici “bidətin başlanğıcı” kimi təqdim etmişlər.

Tarixən Xəvaricin əsas simalarından biri Hurqus ibn Zuheyr əs-Sədusi (Zül-Xuveysira) olmuşdur. O, ideoloji baxımdan Xəvaricin mənəvi atası sayılır. Peyğəmbərin (s) dövründə Boğat statusunda olmuş və Peyğəmbər (s) onun gələcəkdə fitnəkar bir cərəyanın başçısı olacağını bildirmişdir. Digər məşhur xəvaric sima Abdullah ibn Vəhəb ər-Rasibi olmuş, Nəhrəvan döyüşündə Xəvaricin baş komandanı kimi çıxış etmiş və cərəyanın faktiki qurucusu sayılmışdır.

## Mürciə cərəyanı

“Mürciə” termini anlayış etibarilə “hökmü təxirə salan”, “imanla əməli bir-birindən ayıran” mənalarını ifadə edir. Mürciə İslam tarixində formalaşmış növbəti rəsmi cərəyanlardan biri olmuşdur. Bu məzhəb Xəvaricin ifratçı mövqeyinin tam əksi kimi meydana çıxmışdır. Mürciə iman məsələsində hökmü Allaha həvalə edir, böyük günah işləyənin imandan çıxmadığını müdafiə edir, hətta günahın ümumiyyətlə imana heç bir təsir göstərmədiyini iddia edən bir yanaşma irəli sürür.

Mürciənin əsas ideyaları bunlardır: günah imana zərər vermir; hakimlərin haqq və ya batil olması axirətdə məlum olacaqdır; iman qəlbin təsdiqindən ibarətdir və əməl onun tərkib hissəsi sayılmır; siyasi münaqişələrdə hökmü təxirə salmaq və onu Allaha buraxmaq, yəni "irca" etmək lazımdır. Bu yanaşmanın tarixi funksiyası xüsusilə siyasi fitnələr dövründə müharibə edən tərəflər haqqında hökmü təxirə salmaq və cəmiyyətdə nisbi sabitlik yaratmaq olmuşdur.

Mürcиə təfəkkürü əsasən Əməvi hakimiyyəti dövründə, Müaviyənin zamanından başlayaraq və ondan sonrakı mərhələdə rəsmi ideoloji dəstək görmüşdür. Bu etiqad zalım hakimiyyətə qarşı etirazı zəiflədir və siyasi passivliyi təşviq edirdi. Buna görə də Bəni Üməyyə tərəfindən geniş şəkildə istifadə edilmişdir.

Mənbələrə görə Mürciə düşüncəsi ilkin olaraq Kufə və Bəsrədə formalaşmış, daha sonra Şam mərkəzli hakimiyyət tərəfindən legitimləşdirilmişdir.

Mürciə ideyasının ilkin forması Həsən ibn Məhəmməd ibn Hənəfiyyəyə nisbət edilir. "İrca" (hökmü təxirə salmaq) anlayışını sistemləşdirən ilk şəxs də məhz o olmuşdur və Mürciə cərəyanının qurucusu kimi qəbul edilir.

Bu gün Mürciə ayrıca bir məzhəb kimi mövcud olmasa da, onun düşüncə modeli və psixoloji təsiri müsəlman dünyasında qeyri-rəsmi şəkildə hələ də yaşamaqdadır.

**İslamda yaşayan kəlam və əqidə məktəbləri**

Bu başlıqda artıq əsl mövzumuz olan müasir dövrdə — yəni hal-hazırda yaşayan, ardıcılları mövcud olan və müsəlmanlar arasında real etiqad sistemi kimi qəbul edilən kəlam və əqidə məktəblərilə tanışlıq olacaq. Tarixi baxımdan çoxsaylı kəlam və ideoloji firqələr mövcud olmuş olsa da, onların böyük əksəriyyəti ya tamamilə tarix səhnəsindən çəkilmiş, ya da müstəqil dinə çevrilərək İslam çərçivəsindən çıxmışdır. Ümumi mənzərəyə nəzər salsaq, yuxarıda qeyd etdiyimiz kimi bu gün müsəlmanlar arasında əsasən altı kəlam məktəbi mövcuddur: Mötəziliyyə**;** Əşəriyyə**;** Maturidiyyə**;** Əsəriyyə; İbadiyyə: İmamiyyə.

Bir daha qeyd edirik ki, bu kəlam və əqidə məktəblərindən Mötəziliyyə faktiki olaraq bu gün artıq çox zəif vəziyyətdədir. Ona etiqad edən müsəlmanların sayı son dərəcə azdır və demək olar ki, təşkilatlanmış cəmiyyət şəklində mövcud deyildir. Lakin bu fakt Mötəzilə məktəbinin İslam düşüncə tarixindəki rolunu azaltmır. Əksinə, Mötəzili alimlərin qələmə aldıqları əsərlər bu gün də Qurani-Kərimin təfsiri, kəlam, üsulül-fiqh və fəlsəfi teologiya sahəsində mühüm elmi mənbələr sayılır və sonrakı kəlam məktəblərinə, xüsusilə Əşəriyyə, Maturidiyyə və Əsəriyyənin formalaşmasında ciddi təsir göstərmişdir.

Burada bir sualı da öncədən cavablandırmaq zəruridir ki, niyə sələfiyyə ayrıca kəlam məktəbi kimi təqdim edilmir? Bunun səbəbi ondan ibarətdir ki, Sələfiyyə

müstəqil kəlam məktəbi deyil. Sələfilər etiqad baxımından Əsəriyyə (Əhli-hədis) məktəbinə mənsubdurlar. Doğrudur, zamanla bəzi məsələlərdə yeni vurğular və sərtləşmələr etmişlər, lakin əsas teoloji çərçivə baxımından Əhli hədis kəlam xəttindən kənara çıxmamışlar.

## İslamdan çıxaraq müstəqil dinə çevrilmiş əqidələr

Bu araşdırmada əsli İslam daxilində olub, lakin sonradan müstəqil dinə çevrilmiş və bu gün artıq İslam çərçivəsinə daxil edilməyən əqidələr ayrıca mövzu kimi araşdırılmayacaqdır. Bu cərəyanlar hal-hazırda mövcud olsalar da, artıq İslam əqidə sistemi ilə ortaq teoloji baza paylaşmırlar. Bunlar beş əsas istiqamətdir: 1.Nüseyriyyə (Nüseyrilər)**;** 2.Durziyyə (Durzilər)**;** 3.Yezidiyyə (Yezidilər)**;** 4.Babiyyə (Əzəliyyə)**;** **5.**Bəhaiyyə (Bəhailik). Bu əqidələr haqqında ayrıca dinşünaslıq və müqayisəli dinlər tarixi araşdırmalarında geniş şəkildə bəhs ediləcəkdir.

## Əslində İslam kəlamında əsas məktəblər üçdür

İslam kəlamında əsas məktəblər Mötəziliyyə, Əşəriyyə və ən qədim kəlam məktəbi olan İmamiyyə hesab olunur. Bu mövzunun izahı üçün də əsasən bu üç məktəblə kifayətlənmək mümkündür. Tarix boyu isə bu əsas məktəblərlə yanaşı, Maturidiyyə, Əsəriyyə və İbadiyyə kimi digər kəlam məktəbləri də meydana çıxmışdır.

Məsələn, Maturidiyyə — Əşəriliyin daha rasional istiqamətdə inkişaf etmiş, əqlə daha geniş yer verən forması kimi dəyərləndirilir. Əsəriyyə isə əksinə, rasionallığı ciddi şəkildə məhdudlaşdıran, hətta demək olar ki, minimuma endirən və nəqlin üstünlüyünü daha sərt şəkildə ön plana çıxaran bir istiqamətdir. İbadiyyə isə Xəvaric hərəkatından qaynaqlanmış, lakin zamanla əhəmiyyətli dəyişikliklərə uğrayaraq özünəməxsus, nisbətən sadə bir etiqad sisteminə malik məktəb kimi formalaşmışdır. Ümumiyyətlə, İbadiyyə klassik kəlam mənbələrində geniş şəkildə müzakirə olunmur.

Bu məktəblər tarix boyunca ayrıca cərəyanlar kimi mövcud olmuşdur. Lakin klassik İslam kəlamının əsas "nüvəsi" üç məktəbdən ibarət hesab edilir. Başqa sözlə, kəlam elminin əsas söz sahibi Mötəziliyyə, Əşəriyyə və İmamiyyədir. Bununla belə, biz araşdırmamızda hazırda mövcud olan bütün kəlam məktəblərini də müzakirə edəcəyik.

**Mötəziliyyə kəlam məktəbi**

Mötəziliyyə (Mötəzilə), bəzi mənbələrdə isə Təfviz əhli ("Əhli-Təfviz") adı ilə tanınan kəlam məktəbi İslam düşüncə tarixində hicri II əsrdə meydana çıxmışdır. Tarixi mənbələrə görə bu məktəbin əsas fikirləri Bəsrə şəhərində (İraq) Vasil ibn Ətaya (hicri 81–131) məxsusdur. Vasil ibn Əta tanınmış alim Həsən əl-Bəsrinin tələbəsi olmuş, lakin müəyyən teoloji problem – böyük günah törətmiş müsəlmanın əqidəvi statusu məsələsi – ətrafında fərqli mövqe tutduğu üçün onun dərslərindən ayrılmış və müstəqil düşüncələrə sahib olmuşdur. "Mötəzilə" adının da "itizal" (uzaqlaşmaq, ayrılmaq) kökündən götürüldüyü qəbul edilir və bu ayrılma hadisəsi ilə əlaqələndirilir.

Mötəzilə məktəbi ibtidasında sırf teoloji zərurətdən irəli gəlmişdir. Həsən əl-Bəsri ilə Vasil ibn Əta arasında baş verən əsas mübahisə böyük günah etmiş müsəlmanın iman baxımından hansı mövqedə durduğu məsələsi üzərində cəmlənmişdir. Xaricilər belə bir şəxsi kafir, mürciələr isə mömin hesab etdiyi halda, Vasil ibn Əta bu iki mövqedən fərqli olaraq "əl-mənzil beynəl-mənziləteyn" prinsipini irəli sürmüşdür. Bu prinsipə görə, böyük günah edən şəxs nə mömin, nə də kafirdir, imanla küfr arasında bir mövqedədir. Məhz bu yanaşma sonradan Mötəzilə məktəbinin formalaşmasına səbəb olmuşdur.

Mötəzilə məktəbinin əsas məqsədi dini əqidə məsələlərini yalnız nəqli dəlillərə əsaslanaraq deyil, ağıldan, məntiqdən və rasional arqumentasiyadan istifadə etməklə izah etmək olmuşdur. Bu məktəb Tövhid və İlahi Ədalət kimi əsas etiqadi mövzuları rasional əsaslarla müdafiə etməyə xüsusi əhəmiyyət vermişdir. Buna görə də Mötəzilə klassik İslam kəlamında rasionalist cərəyan kimi tanınır. Abbasilər xilafəti dövründə, xüsusilə Məmun, Mötəsim və Vasiq zamanında Mötəzilə düşüncəsi xilafət tərəfindən dəstəklənmiş, İslamda yeni kəlam məktəbi kimi formalaşmış, rəsmi ideoloji xətt səviyyəsinə yüksəlmiş və yayılmışdır.

Mötəzilə əvvəlcə Bəsrədə meydana çıxmış, daha sonra Bağdad və Abbasilər xilafətinin digər elmi-mədəni mərkəzlərində inkişaf etmişdir. VIII–X əsrlər boyunca İslam kəlamının aparıcı məktəblərindən biri olmuşdur. Lakin Abbasilər xilafətinin zəifləməsindən sonra Mötəzilə tədricən nüfuzunu itirmiş, tərəfdarlarının sayı azalmışdır. Bu məktəb tarixən yalnız Abbasilər dövründə rəsmi dövlət dəstəyi qazanmışdır. Bununla belə, Mötəzilə düşüncəsinin geniş xalq kütlələri arasında yayılması məhdud olmuşdur. Tarixən Zeydi məzhəbilər tərəfindən müəyyən dövrlərdə mənimsənilmiş, müasir dövrdə də əsasən Zeydi əqidəsində təsirini qismən qorunub saxlamışdır. Tarixi baxımdan Mötəzilə Abbasi sarayı ətrafında olan elm adamları və Bağdad alimləri arasında daha çox yayılmışdır.

Mötəziliyyənin əqidə mövzularına keçməzdən əvvəl qeyd etmək lazımdır ki, bu məktəbə xas olan əqidəvi məsələlər İslamın ilk dövrlərindən etibarən müsəlmanlar arasında fərdi şəkildə mübahisə, sual və nəzəri müzakirə mövzusu olmuşdur. Zamanla bu məsələlər sistemləşdirilərək müstəqil kəlam məktəblərinə çevrilmiş,

bəzi hallarda isə dövlət dəstəyi ilə rəsmi xarakter almışdır. Ümumiyyətlə, İslam tarixində məzhəb və kəlam cərəyanlarının formalaşması bu inkişaf xətti üzrə baş vermişdir. İstisna olaraq, İmamiyyə - Cəfəri kəlam və fiqh məktəbinin İmam Cəfər Sadiq tərəfindən İslamın əsaslarını qorumaq məqsədilə elmi şəkildə sistemləşdirildiyi vurğulanır. Mötəzilə əqidəsi beş əsas prinsip üzərində qurulmuşdur:

Tövhid - Allah təkdir, Onun nə zatında, nə də sifətlərində şəriki yoxdur. Mötəziləyə görə Allahın sifətləri Onun zatının eynidir və zatdan ayrıca mövcud deyil. Quranda Allah haqqında işlədilən "əl", "üz" kimi ifadələr məcazi mənada şərh olunur. Allah cisim, məkan və zamandan münəzzəh hesab edilir.

Ədalət **-** Allah ədalətlidir və zülm etməz. Yaxşı və pis yalnız şəriətlə deyil, ağıl vasitəsilə də dərk edilə bilər (husn və qubh əqliyyə). Allah insanı gücü çatmayan işə məcbur edib sonra cəzalandırmaz. İlahi əməllər hikmət və ədalət üzərində quruludur və "Allah istədiyini edir" yanaşması ədaləti inkar edəcək formada qəbul edilmir.

Vəd və Vəid **-** Allahın savab və cəza ilə bağlı vədləri qətidir. Böyük günah edən şəxs tövbə etmədən ölərsə, bağışlanmadan məhrum olar və cəzaya layiqdir. Şəfaət anlayışı qəbul edilsə də, böyük günahkarları səbəbsiz şəkildə xilas edən ümumi şəfaət ideyası rədd edilir.

Əl-mənzil beynəl-mənziləteyn **-** böyük günah etmiş müsəlman nə mömin, nə də kafirdir; imanla küfr arasında bir mövqedədir və "fasiq" adlandırılır. Axirətdə hökmü tövbəsinə bağlıdır.

Əmr bil-məruf və nəhy ənil-münkər **- h**aqqı müdafiə etmək və zülmə qarşı çıxmaq dini və ictimai vəzifədir. Din yalnız fərdi etiqad deyil, eyni zamanda sosial ədalət nizamıdır.

Mötəziləyə görə Allahın qiyamətdə gözlə görülməsi mümkün deyil, çünki bu, cisimliyi tələb edir. İnsan əməllərində tam ixtiyar sahibidir; məcburiyyət (cəbriyyə) qəti şəkildə rədd edilir. Allah yaradan, insan isə öz əməlinin faili hesab olunur. Bu baxımdan Mötəzilə tam təfviz mövqeyini müdafiə edir.

Mötəzilə Quranın yaradılmış (məxluq) olduğunu qəbul edir. Onlara görə yalnız Allah əzəlidir və Quranın əzəli sayılması Tövhid prinsipi ilə ziddiyyət təşkil edir. Bu fikir Abbasilər dövründə ciddi ixtilaflara səbəb olmuş və bir müddət dövlət siyasəti səviyyəsində tətbiq və təbliğ edilmişdir.

Nübüvvət Mötəziləyə görə ağıl baxımından zəruridir. İnsan doğru yolu tapmaq üçün ilahi rəhbərliyə ehtiyac duyur. Möcüzə peyğəmbərliyin əsas dəlili sayılır. Peyğəmbərlərin təbliğdə məsum olması zəruri qəbul edilir.

İman təsdiq və əməl vəhdəti kimi qəbul olunur. Böyük günah imanı zəiflədir, lakin küfr sayılmır. Axirət, cənnət və cəhənnəm cismani şəkildə qəbul edilir. Peyğəmbər səhabələri fəzilətli hesab olunsa da, xətadan uzaq sayılmırlar. İmamət xüsusi ilahi təyinat kimi qəbul edilmir; rəhbərlik şura və ədalət prinsipi ilə müəyyən olunur. Əql dini biliklərin əsas mənbələrindən biri kimi yüksək dəyərləndirilir.

**Əşəriyyə kəlam məktəbi**

Əşəriyyə (Əşərilik) və Əhli-Cəbr (Cəbriyyə) İslam kəlamında ilkin məktəblərdən sayılır. İslam düşüncə tarixində kəlam məktəbləri arasında Mötəzilə ilə başlayan rasional mərhələ və Əşəriyyə ilə davam edən nəqli mərhələ klassik kəlamın əsas mövzularından hesab edilir. Əşəriyyə məktəbi Mötəzilənin güclü rasional təsirinə cavab olaraq formalaşmış və zamanla İslam dünyasında geniş yayılmış kəlam məktəblərindən birinə çevrilmişdir. Bu gün də Şafei fiqh məzhəbində olanların etiqadə Əşərilikdir.

Əşəriyyə kəlam məktəbi adını Əbul-Həsən Əşəridən (hicri 260–324) alır. Əbul-Həsən Əşəri Peyğəmbərin (s) səhabəsi Əbu Musa Əşərinin nəslindən olmuş və kəlam tarixində xüsusilə Mötəzilə ilə apardığı ciddi intellektual mübahisələrlə tanınmışdır. O, uzun müddət Mötəzilə məktəbinə mənsub olmuş, daha sonra isə bu məktəbdən ayrılaraq öz metodoloji xəttini formalaşdırmışdır. Əşərilik Mötəzilənin rasional vurğusuna qarşı bir reaksiya olmaqla yanaşı, “tam inkar” mahiyyəti daşımır; əksinə, nəqlin üstünlüyünü qorumaqla, müəyyən qədər əqlin nəqlə xidmət etməsi prinsipinə əsaslanan bir metodologiya təqdim edir.

Əşəriyyə məktəbinin əsas xüsusiyyəti onun metodunda özünü göstərir. Bu metod qısa şəkildə belə ifadə edilə bilər: nəql (Quran və Sünnə) əsas və ilkin mənbədir. Əql isə nəqlin zahiri mənasının izahı və məntiqi uyğunluğunun göstərilməsi üçün bir həddə istifadə olunur. Əgər nəqlin zahiri mənası insan ağlına zidd kimi görünərsə, əşərilər nəqli inkar etmədən, təvil (mənanın başqa cür izahı) yolu ilə onu açıqlamağa çalışırlar.

Bu metod Mötəzilənin “əqlin nəql üzərində hakim olması” prinsipinə açıq şəkildə qarşı çıxır. Mötəzilə əqlin dini mətnlərin şərhində müstəqil və müəyyənedici rolunu vurğulayır. Əşərilər isə bu yanaşmanın nəqlin əsas rolunu zəiflədə biləcəyini əsas gətirərək, dini mətnin qorunmasını və nəqlin üstünlüyünü ön plana çəkmişlər.

Əşəriyyə məktəbinin ən mühüm teoloji mövzularından biri Allahın sifətləri və zat–sifət münasibətidir. Əşərilərə görə, Allahın sifətləri zatına əlavədir, lakin bu “əlavəlik” cismilik və çoxluq mənası daşımır. Onların yanaşmasına görə, sifətlər nə zatın eynidir, nə də ondan tamamilə ayrıdır. Bu səbəbdən Əşərilərin ifadə tərzi ilə desək, “sifətlər zatın içindədir, lakin zatın xaricində deyil”.

Əşəriyyə məktəbi Allah haqqında Quranda işlədilən "əl", "vəch", "ərş" və s. kimi ifadələri zahiri cismilik mənasında qəbul etmir. Lakin bu ifadələrin konkret mənasını da tam şəkildə izah etmədən, onları "bilinməyən necəliyi ilə təsdiq etmə" yolunu seçirlər. Bu yanaşma onların metodoloji prinsipini formalaşdırır: məna təsdiq olunur, lakin necəliyi soruşulmur. Başqa sözlə, "mənanı qəbul et, necəliyini soruşma" prinsipi əsas götürülür. Məhz bu səbəbdən Əşəriyyə əqidəsi bir çox mənbələrdə ciddi tənqidlərə məruz qalmışdır. Bu tənqidlərin fonunda sonrakı dövrlərdə Əşərilikdən ayrılaraq daha sistemli rasional izah təqdim edən Maturidiyyə məktəbi formalaşmışdır.

Əşərilərin ən çox tənqid olunduğu məsələlərdən biri də Qiyamətdə möminlərin Allahı görəcəyini qəbul etmələridir. Onlar bu "görmənin" mümkünlüyünü təsdiq etsələr də, onun necəliyini izah etmirlər. Bu yanaşma da yenə "təsdiq var, lakin necəliyi bilinmir" prinsipinin davamıdır.

Əşəriyyə məktəbinin ikinci əsas mövzularından biri Quranın əzəli olub-olmaması məsələsidir. Bu mövzu İslam tarixində ən ciddi ixtilaflardan biri olmuş və yalnız teoloji deyil, eyni zamanda siyasi nəticələr də doğurmuşdur. Əşərilər Quranın əzəli və qədim olduğunu qəbul edirlər. Onların bu mövqeyi belə izah olunur: Quranın səs və hərf mərhələsi zaman və məkan daxilində oxunduğu üçün yaradılmışdır (məxluqdur), lakin Quranın mənəvi məzmunu və ilahi kəlam olması baxımından əzəlidir və Allahın zatına bağlıdır. Quranın yaradılmış olub-olmaması məsələsi Abbasi xəlifələri dövründə siyasi təzyiq alətinə çevrilmiş, bir müddət Mötəzilənin "Quran məxluqdur" görüşü rəsmi ideologiya kimi qəbul etdirilmişdir. Sonradan bu yanaşma ciddi şəkildə tənqid edilmişdir.

Əşəriyyə məktəbində insan əməlləri məsələsi də ən çox mübahisə doğuran mövzulardandır. Bu mövzuda onların Cəbriyyə ilə əlaqələndirilməsi çox vaxt müzakirələrə səbəb olur. Əşərilərin mövqeyi belədir: Allah hər şeyi yaradır, o cümlədən insanın əməllərini. İnsan isə bu əməlləri "kəsb edir". Bu yanaşma bəzən insanın tam ixtiyarsız olması kimi tənqid edilmişdir. Problemin əsas nöqtəsi "Allah insanın əməllərini yaradır" fikrində cəmlənir. Əgər əməllər Allah tərəfindən yaradılırsa, onda cəza və mükafatın mənası sual altına düşür. İxtilafın kökü məhz bu nöqtədə dayanır. Digər tərəfdən, "Allah şərr və zülm əməllərini də yaradırmı?" sualı ayrıca teoloji müzakirə mövzusudur. Qurani-Kərimdə isə Allahın zülm və şərrdən münəzzəh olduğu açıq şəkildə bildirilir.

Əşərilərin iman anlayışı Mötəzilə kəlamından fərqlənir. Əşərilərə görə iman qəlb təsdiqi və dil iqrarı ilə müəyyən olunur. Böyük günah edən şəxs imandan çıxmır, mömin olaraq qalır, lakin onun imanı naqis (kamilləşməmiş) hesab olunur. Böyük günah edən möminin axirətdəki hökmü Allahın iradəsinə buraxılır; bu günah imandan çıxma səbəbi sayılmır və savab–cəza məsələsində son hökm yalnız Allaha məxsusdur.

Əşəriyyə məktəbində peyğəmbərlərin məsumluğu mövzusu da xüsusi yer tutur. Əşərilərə görə peyğəmbərlər yalnız risalət və vəhyin çatdırılması baxımından məsumdurlar. Onların risalət xaricindəki fərdi həyatlarında günah etməsi risalətlərinə xələl gətirmir. Əşərilərə görə möcüzə peyğəmbərliyin əsas dəlilidir; möcüzə Allahın peyğəmbərin iddiasını təsdiq edən qeyri-adi bir əlamətidir.

Əşərilərin Qiyamət anlayışı klassik İslam əqidəsi ilə üst-üstə düşür. Qiyamət haqqdır, dirilmə cismani və ruhani birlikdə baş verəcəkdir. Hesab, sirat, tərəzi kimi anlayışlar həqiqidir. Cənnət və cəhənnəm əbədidir.

Əşəriyyə məktəbinin siyasi mövqeyi Mötəzilə ilə müqayisədə müəyyən fərqlər göstərir. Əşərilərə görə rəhbərlik (imamət) zəruridir, lakin bu rəhbərlik ilahi təyin əsasında deyil, ictimai zərurət əsasında formalaşır.

Əşərilərə görə səhabələr ümumilikdə xeyirli və fəzilətli şəxslər hesab olunur. Onlar səhabələrin səhv etmə ehtimalını tam inkar etməsələr də, ümumi mənzərədə səhabələrə müsbət münasibət bəsləyirlər.

## Maturidiyyə kəlam məktəbi

Maturidiyyə (Maturidilik) kəlam məktəbinin banisi Əbu Mənsur əl-Maturidi (təxminən 238–333 h.q.) hesab olunur. O, Səmərqənd elm mühitinin yetirməsi kimi tanınır və fiqh baxımından Hənəfi məzhəbinə mənsubdur. Maturidiyyə məktəbinin əsas xüsusiyyəti onun rasionallığa (əqlə) yanaşma tərzində özünü göstərir. Bu yanaşma Əşəriyyədən və Əsəriyyədən (Əhli-hədisdən) daha geniş, lakin Mötəzilədə olduğu kimi tam rasionallaşdırılmış deyildir. Bu məntiqi mövqe ilə Maturidiyyə, Əşərilikdə ağlın həddən artıq məhdudlaşdırılmasına qarşı çıxır, eyni zamanda Mötəzilənin ağlı "hər şeyin yeganə meyarı" kimi qəbul etməsini də doğru saymır.

Maturidiyyə məktəbi Mərkəzi Asiya, Mavəraünnəhr və Xarəzm bölgələrində formalaşmış, daha sonra isə Osmanlı mühiti daxil olmaqla, ümumilikdə Hənəfi fiqhinin etiqadi baxımdan rəsmi kəlam məktəbi kimi geniş yayılmışdır. Məktəbin inkişafında Səmərqənd, Nişabur, Bağdad və sonralar Anadolu kimi elm mərkəzlərinin rolu böyük olmuşdur.

Maturidiyyə məktəbində nəql (Quran və Sünnə) əsas meyar kimi qəbul edilir, lakin əql də etiqadi məsələlərin həllində zəruri və sistemli bir vasitə kimi istifadə olunur. Bu, məktəbin ən mühüm xüsusiyyətlərindən: əql nəqlə zidd deyil, əksinə onu tamamlayır. Əql bəzi məsələlərdə müstəqil dəlil kimi qəbul edilsə də, şəriət mənbələrinin üzərində dayanmır. Quran və Sünnə etiqadın əsasını təşkil edir, əql isə onları anlamaqda və şərh etməkdə aktiv rol oynayır.

Maturidiyyə bu xüsusiyyəti ilə həm Əşərilikdən, həm də Mötəzilədən fərqlənir. Əşərilikdə əql daha çox təqlid və şəriətə itaət çərçivəsində məhdudlaşdırılır. Mötəzilədə isə əql şəriətin üzərində və ya ən azı şəriətlə paralel, müstəqil bir dəlil kimi daha geniş istifadə olunur. Maturidiyyə isə "əqlin yeri var, lakin nəql üstün mövqedədir" prinsipini qoruyur. Bu baxımdan Maturidiyyə, dini etiqadın əsas prinsiplərini həm nəql, həm də əql vasitəsilə əsaslandırmağa çalışan bir məktəb kimi qiymətləndirilir.

Maturidiyyə məktəbində Allahın zatı (həqiqi mahiyyəti) tamamilə tək, vahid və müstəsna hesab olunur. Allah məkan və zamanla məhdud deyil, dəyişməzdir, cismilikdən uzaqdır və yaradılmışlarla müqayisə edilə bilməz. Bu nöqtədə məktəb Əsəriyyə və Əşərilik kimi digər sünni kəlam məktəbləri ilə Allahı yaradılmışlara bənzətməmək (tənzih) prinsipini paylaşır, lakin Maturidiyyə bu prinsipi daha sistemli və fəlsəfi dildə izah edir.

Maturidiyyə məktəbi Allahın sifətlərini qədim (əzəli) hesab edir və onları zatla əlaqəli sifətlər kimi qəbul edir. Yəni sifətlər Allahın zatından ayrı deyil, lakin zatla eyni də sayılmır; zatla birlikdə mövcud olan ilahi xüsusiyyətlər kimi anlaşılır. Məktəb bu məsələdə nəqli əsaslara bağlı qalmaqla yanaşı, əql vasitəsilə də müəyyən məntiqi izahlar təqdim edir.

Mütəşabih ayələr (zahiri mənası aydın olmayan ayələr) barədə Maturidiyyə məktəbinin mövqeyi əsasən belədir: əsas prinsip tənzihdir, yəni Allahı yaradılmışlara bənzətməkdən çəkinməkdir. Təvil — mənanı şəri və məntiq çərçivəsində izah etmək — mümkündür, lakin ehtiyatla və zərurət olduqda tətbiq edilir. Məqsəd Allahın zatını insan anlayışının sərhədlərinə salmamaqdır.

Maturidiyyə məktəbində Quranın ilahi kəlam olması baxımından əzəli və qədim olduğu qəbul edilir. Bu, kəlamın "Allahın kəlamı" kimi əzəldən mövcud olduğunu ifadə edir. Lakin məktəb Quranın oxunan forması — yəni səs, hərf və söz şəklindəki mərhələsi barədə fərqləndirmə aparır: oxunan səs və hərf mərhələsi hadisdir (yaradılmışdır), ilahi kəlamın özü isə qədimdir.

Maturidiyyə məktəbi insan azadlığı məsələsində açıq və orta bir mövqe ortaya qoyur. Onların ümumi yanaşmasına görə, yaratma Allaha aiddir, seçim və qəsd isə insandan qaynaqlanır. İnsan həqiqi ixtiyar sahibidir və etdiyi seçimlərə görə məsuliyyət daşıyır.

Bu baxımdan Maturidiyyə nə tam cəbr mövqeyini — yəni insanın heç bir seçimə sahib olmaması fikrini — qəbul edir, nə də tam təfviz anlayışını — yəni insanın seçiminin Allahın iradəsindən tam müstəqil olduğunu — doğru sayır.

Maturidiyyə məktəbinin iman anlayışı və əməl ilə bağlı mövqeyi ən çox müzakirə olunan mövzulardandır. Onların əsas prinsipləri belədir: iman əsasən qəlb təsdiqi ilə müəyyən olunur, dil ilə iqrar isə iman üçün zəruri sayılır. Əməl iman mahiyyətindən deyil, onun kamalından hesab olunur.

Böyük günah edən şəxslər barədə Maturidiyyə məktəbi belə bir mövqe tutur: bu şəxs kafir olmaz, fasiq mömin sayılır. Onun axirətdəki hökmü Allahın iradəsinə buraxılır.

Maturidiyyə məktəbində peyğəmbərlərin risalətə dair məsuliyyəti və məsumluğu yüksək səviyyədə qəbul edilir. Onların mövqeyinə görə peyğəmbərlər risalətin çatdırılması baxımından məsumdurlar. Möcüzə isə peyğəmbərliyin əsas dəlillərindən biri hesab olunur.

Maturidiyyə məktəbində axirət və qiyamət məsələləri də aydın şəkildə müəyyənləşdirilmişdir. Qiyamət haqqdır. Dirilmə həm cismani, həm də ruhani birlikdə baş verəcəkdir. Hesab, cənnət və cəhənnəm realdır və əbədidir.

Maturidiyyə məktəbi əxlaqın bəzi əsas prinsiplərinin əql yolu ilə dərk edilə biləcəyini qəbul edir. Məsələn, ədalət və zülm kimi anlayışların müəyyən dərəcədə insan ağlı ilə tanınması mümkündür. Bu yanaşma Maturidiyyənin "əql və şəriət arasında tarazlıq" prinsipinin ən mühüm ifadələrindən biridir.

Maturidiyyə məktəbində imamət (rəhbərlik) məsələsi daha çox şəri və ictimai rəhbərlik kimi anlaşılır. Onların mövqeyinə görə imamət ilahi-nəsli təyinlə məhdudlaşmır. Əsas meyarlar ictimai nizamın qorunması, ədalətin təmin edilməsi və ümmətin məsləhətidir.

Maturidiyyə məktəbi İslam kəlam tarixində mühüm rol oynayır, çünki əhli sünnə dünyada rasional kəlamın ən güclü və balanslı ifadələrindən birini təqdim edir.

**Əsəriyyə kəlam məktəbi**

Əsəriyyə (Əhli hədis, Əhli əsər) kəlam məktəbi günümüzdə də etiqad baxımından mövcud olan kəlam məktəblərindən biridir. Bu məktəb daha çox "Əhli hədis" adı ilə tanınır. Məktəbin əsas banisi kimi Əhməd ibn Hənbəl (164–241 h.q.) qəbul edilir. O, eyni zamanda Hənbəli fiqh məzhəbinin də banisidir. Tarixi baxımdan Hənbəli məzhəbinin tərəfdarları həm fiqh, həm də etiqad sahəsində Əhməd ibn Hənbəlin xəttini mənimsəmişlər. O məşhur "Müsnədu Əhməd" adlı hədis kitabının da sahibidir. "Əsəriyyə" kəlam məktəbinin adı "Əşəriyyə" kəlam məktəbi ilə qarışdırılmaması üçün ona daha çox "Əhli hədis" və ya "Əhli əsər" deyilir. Lakin məktəbin əsas adı Əsəriyyədir.

Əsəriyyə məktəbinin mühüm davamçılarından biri də sələfilikdir. Sələfilər etiqadi baxımdan Əsəriyyə kəlamına mənsub sayılırlar, yəni Əhli hədis etiqadını qəbul edirlər. Təbii ki, sələfilik daxilində müxtəlif dövrlərdə və müxtəlif liderlər vasitəsilə bəzi əlavə və dəyişikliklər meydana gəlmişdir. Bu dəyişikliklər əsasən tanınmış simalar: İbn Teymiyyə, İbn Qəyyum, İbn Əbdül-Vəhhab, İbn Baza

məxsusdur. Lakin ümumi çərçivədə hənbəlilər və sələfilər etiqad baxımından Əsəriyyə kəlamı ilə eyni xətti paylaşırlar.

Əsəriyyə kəlam məktəbinin ən xarakterik xüsusiyyəti onun nəqlə (Quran və Sünnə) əsaslanması və əqlə çox məhdud rol verməsidir. Bu məktəb etiqadi məsələlərin həllində əsasən Quran və hədisə müraciət edir. Qeyd etdiyimiz kimi Əhməd ibn Hənbəl həm fəqih, həm də böyük bir hədisçi olmuşdur. Onun məşhur əsəri "Müsnədu Əhməd" on minlərlə hədisi ehtiva edir ki, bu da onun etiqadi yanaşmasının nəql və hədis mərkəzli olduğunu açıq şəkildə göstərir.

Lakin mühüm bir məqamı qeyd etmək lazımdır ki, Əhməd ibn Hənbəl Əşəri və ya Maturidi kimi sistemli bir kəlam məktəbi yaratmamışdır. O, öz dövründə kəlam sahəsində sistemli bir kitab da qələmə almamışdır. Buna baxmayaraq, onun etiqadi metodologiyası və hədisə bağlı yanaşması sonradan "Əhli-əsər", "Əhli-hədis" yönümlü etiqadın əsasını təşkil etmişdir. Nəticə etibarilə, Əhməd ibn Hənbəlin görüşləri onun tələbələri və ardıcılları tərəfindən sistemləşdirilərək Əsəriyyə kəlam məktəbi kimi formalaşmışdır. Bu formalaşma prosesi onun tələbələri və ardıcılları Əl-Bərbahari, Osman ibn Said əd-Dərimi və digərləri – tərəfindən həyata keçirilmişdir. Daha sonra İbn Teymiyyə, İbn Qəyyim və digər alimlərin əlavələri ilə bu xətt sələfi cərəyanının etiqadi əsasına çevrilmişdir.

Əsəriyyə etiqadının əsas mənbələri digər kəlam məktəblərində olduğu kimi Quran və Sünnədir. Lakin Əsəriyyə bu mənbələri xüsusilə səhabə və tabiinin anlayışı çərçivəsində oxuyur və bu anlayışı əsas meyar kimi qəbul edir. Onların yanaşmasına görə, səhabə və tabiinin qəbul etdiyi məna şəriətin ən etibarlı təfsiridir.

Əsəriyyə məktəbi kəlamı müstəqil, məntiqi və rasional bir elm kimi qəbul etmir. Onların mövqeyinə görə, etiqad əql yolu ilə "kəşf edilən" bir elm deyil, naql (Quran və Sünnə) vasitəsilə qəbul edilən bir mövzudur. Bu səbəbdən Əsəriyyə məktəbi fəlsəfi kəlamı, yəni rasionalist və spekulyativ teologiyanı qəti şəkildə rədd edir. Onlar etiqad məsələlərini mətnə bağlılıq üzərində qurur və fəlsəfi şərhlərdən uzaq dururlar.

Əsəriyyə məktəbində ən çox müzakirə olunan mövzulardan biri Allahın sifətləri məsələsidir. Onlar belə bir mövqe tutur ki, Allahın sifətləri Quran və Sünnədə necə gəlibsə, o şəkildə təsdiq olunur. Bu sifətlərin necəliyi (keyfiyyəti) soruşulmur və bu barədə sual vermək qadağan edilir. Mənaya gəldikdə isə məcazi təfsir və rasional təvil qəbul edilmir.

Hənbəli alimlərdən fərqli olaraq bəzi sələfi mütəxəssisləri bu mövzuda etdikləri əlavələrdə Allahın bəzi sifətləri – məsələn, Allahın əli və vəchi – zahiri mənada qəbul edilir. Onlar bu sifətlərin zahiri mənasını qəbul edir, lakin onların məxluqat sifətlərinə bənzədilməsini inkar edirlər, amma necəliyi və keyfiyyəti barədə də bir söz demirlər. Eyni yanaşma Qiyamət günü Allahın görülməsi məsələsində də

mövcuddur. Allahın görüləcəyini qəbul edir, lakin bunun keyfiyyəti barədə sual verməyi qadağan edirlər.

Əsəriyyə məktəbinə görə Quran Allahın kəlamıdır və qeyri-məxluqdur, yəni əzəlidir. Bu mövqe onlar tərəfindən Abbasilər dövründə də ciddi şəkildə müdafiə olunmuşdur. Məsələn, Əhməd ibn Hənbəl "Mihnə" dövründə bu etiqadı qorumuş və bu məsələdə heç bir güzəştə getməmişdir. Bu baxımdan Əsəriyyə məktəbi "Quranın yaradılmış olması" iddiasını qəti şəkildə rədd edir.

Əsəriyyə kəlam və etiqad metodologiyasında rasionalizmdən uzaq durur, mətni əsas götürür, zahiri və lüğəvi mənanı ön planda saxlayır və fəlsəfi dəlillərdən çəkinir. Bu səbəbdən Əsəriyyə bəzən Əşəriliyin daha sərt və daha literalist forması kimi təqdim edilir. Onlar rasionallığa Əşərilikdən də az yer verir və bəzən onu demək olar ki, tamamilə kənarda qoyurlar.

Nəticə olaraq, Əsəriyyə kəlam məktəbi İslam kəlam tarixində ənənəvi və mətnə əsaslanan yanaşmanı təmsil edir. Bütün bu müzakirəyə açıq məsələlərə baxmayaraq, Əsəriyyə sünni etiqadın istiqamətlərindən biri olaraq mövcudluğunu qoruyub saxlamışdır.

## İbadiyyə kəlam məktəbi

İbadiyyə (İbaziyyə) İslam düşüncə tarixində xəvaric məzhəbindən törəyən məktəblərdən biri kimi tanınır. Lakin bu gün İbadiyyə ilə klassik xəvaric arasında yalnız tarixi əlaqə qalmışdır. İbadiyyə əqidə və praktik baxımdan xəvariclə artıq heç bir bağlılığı olmayan, müstəqil və özünəməxsus bir etiqad məktəbinə çevrilmişdir.

Xəvariclər erkən İslam dövründə bir neçə firqəyə bölünmüş və onlardan yalnız İbadiyyə günümüzə qədər davam edə bilmişdir. Məktəbin qurucusu kimi Əbdullah ibn İbaz (vəfatı 80 h.q.) qəbul edilir. Onun doğum tarixi dəqiq məlum olmasa da, tarixi mənbələr onun hicri birinci əsrdə yaşadığını qeyd edir. Əbdullah ibn İbaz əvvəlcə xəvaric cərəyanlarından birinə mənsub olmuş, lakin sonradan müfəssir, mühəddis və fəqih kimi formalaşaraq xəvaricdən fərqli etiqadi və siyasi mövqelər irəli sürmüşdür. Bu fərqliliklər illər sonra onun ardıcılları tərəfindən sistemləşdirilərək "İbadiyyə" və ya "İbaziyyə" kəlam məktəbini formalaşdırmışdır.

İbadiyyə məzhəbi erkən dövrdəki müsəlman siyasi və etiqadi mübahisələrin nəticəsində meydana çıxmış və zamanla müstəqil bir məzhəb kimi inkişaf etmişdir. Coğrafi baxımdan İbadiyyə əsasən Oman Sultanlığında (rəsmi dini məzhəb kimi), həmçinin Zənzibar və Madaqaskar kimi bölgələrdə mövcuddur. İbadiyyə öz tarixi köklərini xəvaricdən alsa da, özlərini "xəvaric" adlandırmır və bu adı qəti şəkildə rədd edirlər. Maraqlıdır ki, bəzi sünni çevrələr İbadiləri "şiə", bəzi şiə qrupları isə

“sünni” kimi qiymətləndirirlər. İbadilər isə özlərini nə sünni, nə də şiə kimi təqdim edirlər. Etiqadi baxımdan daha çox Motəziləyə yaxındırlar.

İbadiyyə məktəbində Quran əsas dəlil sayılır və Sünnə, səhih olduğu təqdirdə qəbul edilir. Onlar hədis və sünnəyə bağlıdırlar, lakin mənbələrə yanaşmada seçici davranırlar. Səhabəyə münasibətdə də eyni seçici yanaşma mövcuddur; yəni səhabələrin hamısı eyni səviyyədə qəbul edilmir. İbadilər səhabəni idealizə etmədən, onların etiqadi və siyasi mövqelərini tənqidi şəkildə qiymətləndirə bilirlər. Bu xüsusiyyət İbadiyyənin ən fərqləndirici cəhətlərindən biridir.

İbadiyyə ağlı tamamilə rədd etmir, əksinə, ağlı dəlilləri möhkəmləndirən yardımçı vasitə kimi qəbul edir. Onlar kəlamı bütövlükdə inkar etməsələr də, xüsusilə yunan fəlsəfəsinə əsaslanan abstrakt və spekulyativ dəlillərə açıq deyillər. Məqsəd Quran və Sünnənin zahiri mətninə sadiq qalmaq və təfsir və təvillə mətnin ruhunu qorumaqdır.

İbadiyyə etiqadı fundamental baxımdan ümumi İslam etiqadından kəskin şəkildə fərqlənmir. Onların əsas etiqadi mövqelərinə görə Allah vahiddir, təkdir və Onun heç bir bənzəri yoxdur. Allahın zatı məkan və zamanla əlaqəli deyil, dəyişməz və məlum olmayan bir varlıqdır. Cisimlik, məkan və zaman anlayışları Allahdan uzaqdır.

İbadiyyə məktəbində Allahın sifətləri zatın daxilində olan xüsusiyyətlər kimi qəbul edilir, müstəqil varlıqlar hesab edilmir. Onlar sifətləri zata əlavə edilmiş ayrıca anlayışlar kimi görmür və “zat–sifət” ikiliyini qəbul etmirlər. Təşbih (Allahı məxluqata bənzətmək) və təcəssüm (Allahın cisimləşməsi) qəti şəkildə rədd edilir. Allahın sifətləri haqqında danışarkən “necəliyin” (keyfiyyətin) izahından çəkinilir və mətnin zahiri mənasına sadiq qalınır.

İbadiyyəyə görə peyğəmbərlər risalət zamanı məsumdurlar, yəni dini təbliğ və rəhbərlikdə səhv etməzlər. Lakin risalətdən kənar həyatda mütləq məsum olduqları iddiası İbadiyyə etiqadının əsas prinsipi sayılmır. Möcüzə peyğəmbərliyin dəlilidir və ən böyük möcüzə kimi Quran qəbul edilir. İbadiyyə Quranın Allahın kəlamı olduğunu və qədim - əbədi olduğuna inanır, Quranın məxluq olması fikrini rədd edir.

İbadiyyə insanın məsuliyyətini qoruyan orta yol mövqeyi tutur. Onlar nə tam cəbr, nə də tam təfviz anlayışını qəbul edirlər. Allah yaradandır, Onun elm və iradəsi mütləqdir, lakin insan seçim və qərar vermə qabiliyyətinə malikdir və bu seçiminə görə məsuliyyət daşıyır.

İman və küfr məsələsi İbadiyyə etiqadında xüsusi əhəmiyyət daşıyır və bu mövzu onların xəvaric köklərindən əsaslı şəkildə ayrılmasına səbəb olmuşdur. İbadiyyə klassik xəvariclərin sərt təkfir anlayışını tənqid edərək daha yumşaq mövqe tutmuşdur. Böyük günah edən şəxs kafir sayılmır, lakin tam mömin də hesab edilmir. Belə şəxs bəzi ictimai hüquqlardan məhrum edilə bilər, lakin mürtəd kimi

qiymətləndirilməz. Tövbə etmədən öldüyü təqdirdə isə axirətdə əbədi cəzalandırılacağı qəbul edilir.

İbadiyyə məzhəbində imamlıq şura yolu ilə seçilən bir rəhbərlik modelinə əsaslanır. İmam ilahi təyinlə deyil, elm, ədalət, təqva və idarəçilik qabiliyyəti əsasında seçilir. Bu prinsip İbadiyyənin siyasi düşüncəsinin əsasını təşkil edir. Qədir-Xum hadisəsi İbadiyyə tərəfindən fəzilət və məhəbbət bəyanı kimi izah edilir və siyasi təyin kimi qəbul edilmir. İbadiyyə etiqadında məsum imam anlayışı yoxdur.

Axirət İbadiyyə üçün real və ciddi bir həqiqətdir. Onlar Qiyaməti, dirilməni cismani və ruhani qəbul edir, hesab, mizan, Cənnət və Cəhənnəmin həqiqi və əbədi olduğuna inanırlar. Bu baxımdan İbadiyyə klassik İslam etiqadının əsas prinsiplərini qoruyur.

İbadətlər sahəsində isə İbadilər bidət və əlavə dini formalar mövzusunda ehtiyatlı davranırlar. Sadəlik və ölçülülük əsas prinsip kimi qəbul edilir. Məsələn, namazda Cəfərilər və Malikilər kimi əlləri açıq saxlamaqla qılmaları onların fiqhi baxımdan ən tanınmış xüsusiyyətlərindən biridir. İbadiyyə kəlam məktəbi kimi eyni adlı müstəqil fiqh məktəbi də var.

**İmamiyyə kəlam məktəbi**

İmamiyyə kəlam məktəbini sona saxlamaqda məqsədimiz məhz onun daha kamil və daha əhatəli olmasıdır. Tarixdən məlumdur ki, Əməvi xilafətinin sona yaxın dövründə yaranmış siyasi boşluq zamanı İmam Məhəmməd Baqir tədrislə ciddi şəkildə məşğul olmağa başlamış, İslam maarifinin görkəmli alimlərini yetişdirmişdir. Ondan sonra Abbasi xilafətinin başlanğıc dövrlərində isə İmam Cəfər Sadiq Mədinədə ilk sistemli mədrəsə modelini yaratmış və bu tədris fəaliyyətini daha da genişləndirmişdir.

Hənəfi məzhəbinin banisi Nöman ibn Sabit (Əbu Hənifə) və Maliki məzhəbinin banisi Ənəs ibn Malik İmam Cəfər Sadiqdən dərs almış, lakin sonradan ondan ayrılaraq öz fiqhi məzhəblərini formalaşdırmışlar. Həmin dövrdə məhz İmam Mühəmməd Baqir və İmam Cəfər Sadiqin tədris etdikləri elmi və dini biliklərə "Cəfəri fiqhi" və "İmamiyyə kəlam məktəbi" adı verilmişdir.

Əslində isə İmam Mühəmməd Baqir və İmam Cəfər Sadiq heç vaxt ayrıca bir məzhəb yaratmamışlar. Sadəcə olaraq onlardan ayrılanlar, Peyğəmbərin Əhli-beytini ilahi rəhbərlər kimi qəbul etməyənlər və məsum imamların imamətini tanımayanlar bu təlimləri fərqləndirmək məqsədilə Əhli-beytin yolunu "Cəfəri məzhəbi" və "İmamiyyə kəlam məktəbi" adlandırmışlar. İmam Cəfər Sadiqin adının bu məktəblə hallanmasının səbəbi isə onun dövründə münasib şəraitin

yaranması və nəticədə daha çox hədis, fiqh, təfsir, kəlam və s. elmi irsini bəyan edə bilməsidir.

İmam Mühəmməd Baqir və İmam Cəfər Sadiq özlərindən bir fikir ortaya qoymamış, yalnız Peyğəmbərin (s) buyurduqlarını ümmətə çatdırmışlar. Ümumiyyətlə, İmam Əli, Fatimeyi-Zəhra, İmam Həsən, İmam Hüseyn, İmam Zeynülabidin, İmam Mühəmməd Baqir, İmam Cəfər Sadiqdən başlayaraq İmam Mehdiyə qədər bütün məsum imamlar Peyğəmbər hədislərini nəql etmişlər. Onlar Peyğəmbərin ailəsi, ev əhli və nəsil davamçıları olmuş, Allah tərəfindən Peyğəmbərin yolunu və saf İslamı qorumaq üçün seçilmiş ilahi rəhbərlərdir. Bu barədə "Təthir", "Mübahilə", "Ulul-əmr" ayələrini "Qədir-Xum", "Mənzilət", "Səqəleyn" hədislərini və digər ayə və hədisləri misal gətirə bilərik.

Bu baxımdan İmamiyyə kəlam məktəbi və Cəfəri fiqh məzhəbi sonradan uydurulmuş və ya yaranmış bir yol deyil, kökü birbaşa Peyğəmbərin zamanına gedib çıxan məktəbdir. Təbii ki, həmin Peyğəmbər dövründən etibarən Əhli-beyti qəbul etməyənlər də mövcud olmuşdur. Qarşı tərəflər zamanla öz yollarını ayrıca məzhəb şəklində formalaşdırdıqları üçün, bu yol da təbii və tarixi bir proses nəticəsində məzhəb və məktəb adı ilə tanınmışdır.

Məlumdur ki, səmavi dinlərdə əsas üç təməl etiqad mövcuddur. Bunlar Tohid, Nübüvvət və Məaddır. Əlbəttə, bu gün İmamiyyə kəlam məktəbində tarixi ixtilaflar və elmi mübahisələr fonunda Tohid mövzusunun daxilində olan ilahi ədalət (ədl) məsələsi xüsusi yer tutur və digər ilahi sifətlərlə müqayisədə daha geniş şəkildə bəhs olunur. Eyni zamanda, Nübüvvət mövzusuna daxil olan İmamət (məsum imam) məsələsi də Nübüvvətin digər mövzularından fərqli olaraq ayrıca və daha ətraflı şəkildə araşdırılır. "Üsuli-din beşdir" deyənlərin məqsədi də məhz budur. Bununla belə, İmamiyyə kəlam məktəbində də dinin kökü əslində üç əsasdan ibarətdir: Tohid, Nübüvvət və Məad. Sadəcə olaraq, Tohid bəhsləri daxilində Ədalət, Nübüvvət bəhsləri daxilində isə İmamət mövzuları müstəqil şəkildə araşdırılır.

**Tohid** etiqadın başıdır, İmamiyyə əqidəsinə əsasən Yaradan var və O, Allahdır. Allah Təkdir, şəriksizdir, zatı ilə sifətləri eynidir. O, Qüdrətlidir, Alimdir, Ədalətlidir, Əzəlidir, Rəzzaqdır, Diridir, Görəndir, Eşidəndir, Hikmətlidir, Bağışlayandır, Mehribandır, Ehtiyacsızdır, Hidayət edəndir. Ümumiyyətlə, bütün kamal sifətləri Onun zatından qaynaqlanır və kamilliyin mütləq mənbəyi Odur.

Onun heç bir şəriki yoxdur, cisim deyil, gözlə görünməz, zülm etməz, möhtac olmaz, doğulmayıb, doğmayıb, tayı, misli və bərabəri yoxdur. O, bütün eyblərdən və nöqsanlardan pakdır, heç bir varlıqda hülul etməz. Bu sayılan nöqsan sifətlərin heç biri Allahın zatına uyğun deyil. Əgər hər hansı bir "tanrı" anlayışında bu nöqsan sifətlər mövcuddursa, deməli, o varlıq Allah ola bilməz.

**Ədalət** ilahi ədl deməkdir yəni, Allah Ədalətlidir və heç vaxt zülm etməz. İnsanın qarşılaşdığı çətinliklər və əziyyətlər insanın öz əməllərinin nəticəsidir. Allah ibadət

olunmağa layiq yeganə varlıqdır və bütün yaranmışlar yalnız Ona ibadət etməlidirlər. O, Rəbdir; yaranış aləmini yaradan, onu yönəldən və idarə edəndir. Allah insanı hidayət etmək, ona feyz vermək və kamala çatdırmaq məqsədilə yaratmış, bu yol üçün onun ixtiyarına bütün yaranış aləmini vermişdir.

Allah daim fəaldır, diridir, feyz verəndir, iradə sahibidir və kamala çatdırandır. O, insana qüdrət, qüvvə, ixtiyar və seçim vermişdir. Allah yaranış aləminin ən üstün varlığı olan insanı hidayət etmək, feyzə çatdırmaq və kamala ucaltmaq üçün ona ağıl və fitrətlə yanaşı, din və şəriət də göndərmiş, həmçinin öz aralarından onlara peyğəmbərlər və imamlar seçmişdir.

Allahın insana verdiyi ağıl özü-özlüyündə yaxşı ilə pisi ayırd edə bilir, əxlaqı dərk edir. İnsan ağlı kamilləşməyə aparan yolu tanımağa qadir olsa da, Allah bu yolu daha aydın, daha təhlükəsiz və daha rahat şəkildə qət etmək, həmçinin yaradılışın məqsədinə tam şəkildə çatmaq üçün əlavə olaraq din də göndərmişdir. Din ilahi yoldur və Allah onu mələklər vasitəsilə insanlar arasından seçdiyi peyğəmbərlərə — ilahi elçilərə nazil edir. Mələklər isə insanlarla Tanrı arasında vasitəçi olan varlıqlardır.

Bu mövzuda əsas müzakirə məsələlərindən biri insanın ixtiyar sahibi olub-olmamasıdır. İmamiyyə məktəbinə görə insandakı güc və qüdrət Allahdandır və Allah bu güc və qüdrətin ixtiyarını insana vermişdir. Həmin güc və qüdrətin hansı istiqamətdə işlədilməsi və necə istifadə olunması isə insanın öz iradəsi və seçimi ilə bağlıdır. Bundan əlavə, Allah düzgün seçim yollarını da həm ağıl, həm də din vasitəsilə insana göstərmişdir, lakin iradə və ixtiyar yenə də insanın öz əlində qalır. Əlbəttə ki Allah onun yoluyla gedib düzgün seçim edənlərə əlavə inayət də edir.

Bu baxış nə “Allah belə yazıb və mən də belə etməyə məcburam” deyən cəbr tərəfdarlarının yoludur, nə də “Allah bizi bir dəfə yaradıb, ondan bizimlə işi yoxdur, sonrakı bütün işlər tamamilə öz ixtiyarımızdadır” deyən təfviz tərəfdarlarının mövqeyidir. İmam Cəfər Sadiqin buyurduğu kimi, haqq yol “beynəl-əmreyn”dir; nə cəbr doğrudur, nə də təfviz. Doğru mövqe bu iki anlayışın arasında olan yoldur. Bu yol daim ifrat və təfrit arasında mövcud olan orta yoldur.

Ümumiyyətlə, “alın yazısı” anlayışı müsəlmanlar arasında bəzən qəsdən, bəzən də cahillik nəticəsində formalaşmışdır. İnsanlar öz yanlış seçimlərini ört-basdır etmək üçün “alın yazısını” ortaya atıblar. Əslində “alın yazısı” deyilən anlayış bu mənada mövcud deyil, çünki insan ixtiyar sahibidir. Allahın elmi və hər şeydən əvvəlcədən agah olması isə insanların öz azad iradə və ixtiyarları ilə edəcəkləri seçimləri bilməsi anlamına gəlir ki, bu da “alın yazısı” demək deyil. İnsanın taleyi və həyatı onun öz ixtiyarı və seçimi ilə formalaşır və buna uyğun olaraq da insan həm dünyada, həm də axirətdə əməllərinin nəticəsini görür.

**Nübüvvət** bütün səmavi dinlərin, o cümlədən İslamın əsas etiqadlarındandır. Allah insanlar arasından layiqli və seçilmiş şəxsləri müəyyən edir və onları Öz elçiləri olaraq insanlara göndərir. Bu elçilər Allahın sözlərindən ibarət olan yolunu, yəni

dini insanlara çatdırır, onu təbliğ edir, maarifləndirir, dini və bu yolla gedənləri qoruyur və himayə edirlər.

Allahın bütün bəşəriyyət üçün əsasən bir dini və bir yolu vardır ki, bu da Tohiddir. Lakin zaman keçdikcə bu yolun şəriətləri insanların düşüncəsi, davranışı və müdaxilələri nəticəsində təhrif olunur və ya unudulur. Bu səbəbdən Allah müəyyən dövrlərdə böyük peyğəmbərlər vasitəsilə yeni şəriətlər göndərmişdir. Bütün peyğəmbərlər ilahi vəhydən faydalanmaqla ilahi dindən xəbərdar olmuşlar. Vəhy — Allahın buyuruqlarının insanlara çatdırılmasıdır və bu, müxtəlif yollarla baş verir: vəhy mələyi olan Cəbrayıl vasitəsilə, havada yaradılan səslə, ilham yolu ilə qəlbə enməklə və ya yuxu vasitəsilə.

Adəm ilk insan və ilk peyğəmbərdir. Onun dövründən Nuh peyğəmbərə qədər ayrıca bir şəriət göndərilməmiş, Adəm nəslindən olan insanlar peyğəmbərlərin sahib olduqları ilahi elm və rəhbərliklə yaşamışlar. İlk şəriət Nuh peyğəmbərlə bəşəriyyətə göndərilmişdir. Sonrakı şəriətlər isə İbrahim, Musa, İsa və sonuncu olaraq Mühəmməd peyğəmbər vasitəsilə gəlmişdir. Bu peyğəmbərlər "ulul-əzm", yəni böyük və şəriət sahibi peyğəmbərlər hesab olunurlar.

Bununla yanaşı, digər peyğəmbərlərə — yəni rəsul və nəbi olanlara da ilahi vəhy nazil olmuş və mövcud şəriəti təkmilləşdirən və ya onu qoruyan səmavi kitab və səhifələr verilmişdir. Hər bir şəriət gətirən böyük peyğəmbərin ilahi vəhylərdən ibarət olan kitabı olmuşdur. İslam mənbələrində Nuh və İbrahim peyğəmbərlərə nazil olan kitablar "Suhuf" adı ilə tanınır və onların bu günə qədər heç bir variant, hətta təhrif olunmuş forması da qorunub saxlanmamışdır.

Musa peyğəmbərə Tövrat, İsa peyğəmbərə isə İncil kitabları nazil olmuşdur. Bu kitablar bu gün mövcud olsa da, mövcud nüsxələr onların əsl vəhy formasını əks etdirmir və sonradan insanlar tərəfindən yazıya alınmış mətnlər hesab olunur. Mühəmməd peyğəmbərə isə sonuncu Tövhid dini olan İslamın kitabı — Quran nazil olmuşdur.

Quranda 25 peyğəmbərin adı açıq şəkildə qeyd olunur, rəvayətlərdə isə ümumilikdə 124 min peyğəmbərin olduğu bildirilir. Rəvayətlərə əsasən, yalnız "ulul-əzm" peyğəmbərlərə deyil, başqa beş peyğəmbərə də səmavi kitab nazil olmuşdur. Bu kitablar yeni şəriət gətirməmiş, mövcud ilahi qaydaları qorumağa və möhkəmləndirməyə xidmət etmişdir. İlk insan və ilk peyğəmbər Həzrət Adəmə, onun oğlu Həzrət Şisə, onun oğlu və Adəmin nəvəsi olan İdris peyğəmbərə də səmavi kitabların verildiyi rəvayətlərdə qeyd olunur. Həmin dövr şəriətsizlik dövrü sayılsa da, ilahi elm mövcud olmuş və bu kitab şəklində təqdim edilmişdir.

Bundan əlavə, İbrahim peyğəmbərin oğlu İsmayıl peyğəmbərə də atasının dininə aid bir kitabın nazil olduğu rəvayətlərdə bildirilir. Quranda həm özü, həm də ona nazil olan kitab haqqında məlumat verilən peyğəmbər isə Həzrət Davuddur. Ona nazil olan kitabın adı Zəburdur və bu kitab Musa peyğəmbərin şəriətinə aid olmuşdur.

Şəriət sahibi olan peyğəmbərlər "ulul-əzm" — yəni böyük əzm sahibi peyğəmbərlər adlandırılır. Digər peyğəmbərlik məqamları isə rəsul (elçi) və nəbi (xəbər gətirən) anlayışları ilə ifadə olunur. "Ulul-əzm" peyğəmbərlər həm rəsul, həm də nəbidirlər. Rəsullar eyni zamanda nəbi hesab olunurlar. Nəbilər isə ilahi xəbəri çatdırmaqla vəzifələndirilmiş, peyğəmbərliyin aşağı məqamına sahib olandır.

Quran Peyğəmbərin (s) dövründə ayə-ayə nazil olduqca yazıya alınmış və bu şəkildə bu günə qədər qorunub saxlanmışdır. Bu gün dünyada yalnız bir Quran mövcuddur. Quran təhrif olunmamış, ondan nə bir hərf belə azaldılmış, nə də artırılmışdır və bu xüsusiyyəti ilə dünyada mövcud olan yeganə dəyişdirilməmiş ilahi kitabdır. Quran Allahın kəlamıdır və Allahın kəlamı isə qədimdir, əzəlidir və əbədidir.

Peyğəmbərlər peyğəmbərlik məqamından əlavə, eyni zamanda imamət məqamına da sahib olmuşlar. Allah hər bir peyğəmbərə peyğəmbərliklə yanaşı imamlıq məqamını da vermişdir. Peyğəmbərlik məqamı Allahın sözünü — dini qəbul etmək və onu insanlara çatdırmaq vəzifəsini ifadə edir. İmamət məqamı isə Allahın yolunu — dini və bu yolun daşıyıcılarını qorumaq, hidayət etmək və himayə etmək məsuliyyətidir. Təbii olaraq, peyğəmbərlərin öz dövrlərində imamət məqamı onların məqamının daxilində və onun kölgəsində olmuşdur.

Mühəmməd peyğəmbər (s) sonuncu peyğəmbər, sonuncu şəriət və sonuncu ilahi kitab sahibi olduğu üçün onunla birlikdə peyğəmbərlik missiyası sona çatmışdır. Lakin imamət missiyası Qiyamətə qədər davam edəcək ilahi bir vəzifə olaraq qalır. Peyğəmbəri-Əkrəmdən (s) sonra artıq peyğəmbər gəlməyəcək və bu, qəti ilahi qanundur. Ancaq dini və ümməti — yəni dinə iman gətirənləri qorumaq və himayə etmək missiyası, başqa sözlə imamət məqamı davam etməli idi.

İnsanlar peyğəmbərliklə yanaşı imaməti ayrıca və müstəqil bir ilahi məqam kimi tam dərk etmədikləri üçün, nübüvvətin tərkib hissəsi olan imamət missiyasını bütövlükdə qəbul edə bilmədilər. İslam peyğəmbərindən sonra imamət peyğəmbərliyin kölgəsindən çıxaraq nübüvvətin davamı və müstəqil bir ilahi məqam kimi aşkar oldu. Bunun ilahi bir təyin olduğu hamıya bəlli olsa da, bəziləri bunu dərk etmədi, bəziləri qəbul etmədi, bəziləri tərəddüd içində qaldı, bəziləri isə onu bütün varlığı ilə qəbul etdi. Bu şəxs isə Əli ibn Əbu Talib idi.

Peyğəmbərləri və imamları Allahın onlara verdiyi məqamdan artıq ucaltmaq və ya aşağı endirmək günahdır və hətta insanı dindən çıxmağa qədər aparıb çıxara bilər. Nübüvvətin, yəni peyğəmbərliyin şərtləri vardır və onlar bunlardır:

İlahi təyinat **-** Peyğəmbərlər Allah tərəfindən təyin olunurlar. Hər bir peyğəmbər özündən əvvəlki və özündən sonrakı Allah hüccətini tanıdır. Bütün peyğəmbər və imamlar eyni və tək olan Tanrı tərəfindən göndərildiklərini elan edirlər. Bu həqiqət onların təbliğ etdikləri ilahi yoldan da açıq şəkildə görünür.

Məsumluq – bu məqam yalnız risalət və peyğəmbərlik dövrü ilə məhdudlaşmır; peyğəmbər bütün həyatı boyu, hətta peyğəmbərlikdən əvvəl də məlum olan bütün günahlardan uzaq olmalıdır. Çünki günah etmiş bir insanın sözü təsirli olmaz, ona etibar edilməz. Hətta ömründə bir dəfə də olsa günah etmiş bir şəxsin təbliği insanlara mənfi təsir göstərə bilər. Məsələn, peyğəmbərlikdən əvvəl Allaha şərik qoşmuş, şərab içmiş və ya xalqın malını yemiş bir şəxs peyğəmbər olduqdan sonra onun dəvəti dinləyənlər üçün nə dərəcədə inandırıcı ola bilər?!

Vəhy almaq - Peyğəmbərlər Allahdan vəhy alırlar. Vəhy Allahın buyruqlarının insanlara çatdırılmasıdır və bu, müxtəlif yollarla baş verə bilər: vəhy mələyi olan Cəbrayıl vasitəsilə, havada söz icad edilməsi yolu ilə, ilham – yəni qəlbə enmə vasitəsilə və ya yuxu yolu ilə. Peyğəmbərlər ən azı ilham və ya yuxu vasitəsilə vəhy almışlar.

İlahi elm **-** Peyğəmbərlərin elmi Allahdan olmalıdır. Bu elm hüzuri elm olmalıdır, yəni müəllim, tədris, kitab və ya təcrübə ilə əldə edilən hüsuli elm deyil.

Kamillik **-** Ağıl, düşüncə, davranış və əxlaq baxımından tam və kamil olmalıdırlar. Yəni Tanrı məhz bu xarakterinə görə onları peyğəmbərlyə layiq bilir və bu xüsusiyyəti təkmilləşdirir. Əslində peyğəmbərlikdən öncə günah etməməsi də bu xüsusla əlaqəlidir.

Möcüzə sahibi olmaq - Allah hər bir peyğəmbərini möcüzə ilə dəstəkləmişdir və bu möcüzə yaşadığı dövrün ən üstün bacarığı səviyyəsində olmuşdur. Məsələn, Musa peyğəmbərin dövründə sehr və cadu geniş yayılmışdı. Allah onu həqiqi və qeyri-adi bir güclə göndərdi: əsası böyük canlıya çevrilir, əlindən nur saçırdı. İsa peyğəmbərin zamanında ən üstün bacarıq təbabət idi. O dövrdə anadangəlmə korluğu və ölüm çarə istisna olmaqla bir çox xəstəliklərin müalicəsi mümkün idi. Allah İsanı həmin sahədə ən üstün möcüzə ilə göndərdi: o, anadangəlmə korun gözlərini açır və ölünü dirildirdi. Mühəmməd peyğəmbərin dövründə isə ən üstün bacarıq şeir və nəzm idi. Bunu hər kəs bacarmırdı və bu sahədə mahir olanlar cəmiyyətin ən seçkin şəxsləri sayılırdı. Allah Mühəmməd peyğəmbərə möcüzə olaraq ən üstün kəlamı verdi və onun möcüzəsi Qurani-Kərim oldu. Məsələn, fərz edək ki, bu gün peyğəmbər göndərilsəydi, Allah öz peyğəmbərini süni intellekt kimi dövrün ən qabaqcıl və ən üstün bacarığı sahəsində möcüzə ilə dəstəkləyərdi. Əlbəttə, peyğəmbərlərin başqa qeyri-adi işləri də olmuşdur, lakin əsas möcüzələri bunlardır.

Peyğəmbərlərin möcüzələrinin də şərtləri vardır: 1.Qeyri-adi olmalıdır; 2.Allahın izni ilə baş verməlidir; 3.Peyğəmbərlik iddiası ilə əlaqəli olmalıdır; 4.Heç kəs həmin qeyri-adi işi edə bilməməlidir; 5.Xüsusi şəraitə, zamana və məkana bağlı olmamalıdır.

**İmamət** nübüvvətin davamıdır. Yeni vəhyin gəlməsi və yeni vəhyi insanlara çatdırmaq istisna olmaqla, peyğəmbərliyə aid olan bütün şərtlər imamda da mövcuddur. Bu səbəbdən, insanların nübüvvətə dair etiqadında naqislik

yaranmaması üçün İmamiyyə məktəbi üsuli-dində imaməti nübüvvətin davamı kimi ayrıca mövzu şəklində bəhs edir. Peyğəmbərdən sonrakı imamət və imamlar ilahi göstərişə əsasən Peyğəmbər tərəfindən tanıdılmış və ilahi təyinlə müəyyən edilmişdir. Peyğəmbər özündən sonra peyğəmbər olmadığı üçün bir çox yerlərdə canişin olaraq imamı təyin etmişdi, bunu Qədir-Xumda rəsmi şəkildə elan etmişdir və bu imam Əli ibn Əbu Talibdir. Qədir-Xumda Peyğəmbərimiz imamlıq məqamını və imamı açıq şəkildə tanıtmışdır. Bu, birbaşa olaraq Peyğəmbərdən sonrakı xəlifənin təyini idi. Çünki xilafət imamın haqqıdır və İslam dini Peyğəmbərdən sonra camaatın öz ixtiyarına buraxılmamışdır. Allah yolunun davamçısı ilahi göstərişlə müəyyən edilmiş və bu ağır məsuliyyət imamət məqamına həvalə olunmuşdur. Din, yaradılışın məqsədi olan insan kamilliyi üçün Allah tərəfindən müəyyən edilmiş yoldur. Təbii ki, bu yolun önündə duran və ona rəhbərlik edən şəxs də yalnız Allah tərəfindən təyin olunmalıdır.

Peyğəmbər Qiyamətə qədər gələcək imamların adlarını açıqladığı kimi, hər bir imam da özündən sonrakı imamı tanıtdırmışdır. Beləliklə, Qiyamətə qədər olan Allah hüccətlərinin adları məlum olmuş və dünya heç zaman ilahi hüccətsiz qalmamışdır. Peyğəmbərdən sonrakı imamlar ardıcıllıqla bunlardır: İmam Əli, İmam Həsən, İmam Hüseyn, İmam Zeynul-abidin, İmam Muhəmməd Baqir, İmam Cəfər Sadiq, İmam Musa Kazım, İmam Rza, İmam Muhəmməd Təqi, İmam Əliyyən-Nəqi, İmam Həsən Əsgəri və İmam Mehdi (o, sağdır və qeybdədir).

Sonrakı nsanlar zəmanələrinin imamını, yəni ilahi təyin olunmuş imamı əvvəlki imam vasitəsilə də tanıyırdılar. Digər tərəfdən zəmanə imamı əvvəlki imam dünyadan köçdükdə onun cənazə namazını qılmaqla aşkar olurdu. Deməli, Peyğəmbər ilahi təyinlə imamların adlarını sadalayır, hər məsum imam özündən sonrakını tanıtdırır və zəmanənin imamı özündən əvvəlkinin cənazə namazını qılır.

**Məad** mövzusu bütün səmavi dinlər və onların məzhəbləri tərəfindən qəbul olunur. Məad – ölümdən sonrakı həyat və axirət dünyası haqqındakı bütün mövzuları əhatə edir. Quran ayələri, Peyğəmbər və Əhli-beytin buyurduğu hədislərə əsasən İmamiyyə əqidəsinə görə məad belədir ki, insan ölümlə, yəni ruhun bədəndən ayrılması ilə bu dünyadan köçür və Bərzəx, yəni ruhlar aləminə daxil olur. Bərzəx aləmi insanın öləndən Qiyamət gününə qədər qalacağı aləmdir.

İnsan öldükdən sonra cəsədi torpağa tapşırılır, ruhu isə ümumi sorğu-sualdan keçir və Bərzəxin ya işıqlı, ya da qaranlıq aləmində qalır. Bu, Bərzəxin Cənnət və Cəhənnəminə işarədir. Lakin insanın ən böyük hesabı Qiyamətdə olacaqdır. Allahın sonuncu hüccəti dünyadan köçdükdə Qiyamət başlayar. Allah heç bir vaxt, hətta bir gün belə, bəndələrini ilahi hüccətsiz bu dünyada qoymaz. Adəm və Həvva nəslindən olan insanlar üçün Hz. Adəm ilk insan, ilk peyğəmbər və ilk ilahi hüccətdir, İmam Mehdi isə son imam və son ilahi hüccətdir, onun bu dünyadan getməsilə Qiyamət qopar.

Qiyamət böyük bir hadisədir. Ruhlar Bərzəxdən çıxarılaraq öz əsl bədənlərinə qaytarılar, bədən torpağa qarışmış və kül olmuş olsa belə, yenidən tapılaraq formalaşdırılar. Qiyamət günü bu hadisənin adıdır və Qiyamət sorğu-sualının ümumi olaraq nə qədər davam edəcəyi məlum deyil. Bundan sonra isə əbədi Cənnət və Cəhənnəmdə ruh və bədən birlikdə olacaqdır.

Qiyamət günü şəfaət vardır. Şəfaət əslində Allaha məxsusdur, lakin Allah bunun icazəsini peyğəmbərlərə, imamlara, mələklərə, saleh bəndələrə, şəhidlərə və alimlərə verər və onlar da şəfaət edə bilərlər. Günahlar – təkcə böyük günahlar deyil, hətta kiçik günahlar belə – insanın imanına təsir göstərir və onun savab əməllərini puça çıxara bilər. Lakin bu, insanı tamamilə imandan çıxarıb kafir etməz. Günahkar insanlar Qiyamət günü günahlarına uyğun şəkildə gətirilər və sorğu-sual edilərlər. Şəfaət sözsüz ki, hər günahkara şamil olmaz.

## Kəlam məktəblərinin fərqli mövqeləri

Sonda isə İslamda qeyd etdiyimiz kəlam məktəblərinin ixtilaflı və fərqli yanaşdıqları əsas mövzulara qısa şəkildə toxunacağıq. Bu yazı tanışlıq məqsədi daşıdığı üçün dəlil və sübutlara deyil, yalnız mövqelərin ümumi təqdimatına yer veriləcəkdir.

**Quran** məsələsi – daha dəqiq desək, Quranın hadis (yaradılmış) və ya qədim, əzəli və əbədi olması mövzusu. Bu məsələ üzərində geniş dayanmayacağıq. Mötəzilə kəlam məktəbi istisna olmaqla, digər bütün kəlam məktəbləri Quranı Allahın kəlamı olduğu üçün qədim, əzəli və əbədi hesab edirlər. Yanaşmalar fərqli olsa da, nəticə etibarilə mövqe eynidir.

Mötəzilə məktəbində isə Quranın yaradılmış olması əsas və dəyişməz etiqadi prinsipdir. Bu baxışın formalaşmasında tarixi-siyasi amillərin, xüsusilə Abbasi xilafəti dövrünün müəyyən rolu olmuşdur.

Burada mövzumuz Quran olduğu üçün mühüm bir məqamı da qeyd etmək lazımdır: İslamda heç bir kəlam və fiqh məktəbi Quranın təhrif olunduğunu – yəni azaldılıb-çoxaldıldığını və ya sözlərinin dəyişdirildiyini – qəbul etmir. Bütün kəlam və fiqh məktəblərinin rəsmi mövqeyi Quranın təhrif olunmamasıdır.

Bəzi hallarda şiələrə, xüsusilə İmamiyyə kəlam məktəbinə və Cəfəri məzhəbinə bu məsələ ilə bağlı iftiralar atılsa da, bunun heç bir elmi əsası yoxdur. İmamiyyənin və Cəfəriliyin – ümumilikdə şiəliyin – rəsmi mövqeyi aydındır. Bu gün dünya müsəlmanlarının əlində vahid Qurani-Kərim mövcuddur və istənilən ölkədə eyni mətnlə qarşılaşmaq mümkündür.

**İmamət** məsələsi üzərində də geniş dayanmayacağıq. Çünki bu barədə yuxarıda geniş izah verilmişdir və yalnız İmamiyyə kəlam məktəbi imamətin ilahi göstərişlə müəyyən olunduğunu qəbul edir. Digər məktəblər isə imamətin camaat tərəfindən seçilmə, əvvəlki rəhbər tərəfindən təyin olunma və ya tarixi-siyasi (monarxik) üsullarla formalaşmasını mümkün variant kimi qəbul etmişlər.

Lakin bu alternativ variantların hər biri ilə bağlı tarixdə cavabsız qalan suallar mövcuddur. İmamiyyə isə imamətə nübüvvətin davamı, dinin əsas normativ prinsiplərindən biri və doktrinal bir məsələ kimi yanaşır.

**İsmət** də əvvəlki mövzular kimi qısa şəkildə qeyd oluna bilər. Çünki yalnız İmamiyyə kəlam məktəbinə görə peyğəmbərlər bütün həyatları boyu – istər peyğəmbərlikdən əvvəl, istərsə də peyğəmbərlik dövründə – yalnız risalətdə deyil, həyatın bütün sahələrində məsum olmalıdırlar. Yəni onlar günah sayılan bütün əməllərdən uzaq durmalıdırlar. Bu yanaşmaya görə, günah peyğəmbərin ilahi missiyası ilə uyğun gəlmir və onun təbliğinin təsir gücünü zəiflədə bilər.

Digər kəlam məktəbləri isə ismət anlayışını daha məhdud çərçivədə qəbul edirlər. Onlara görə, peyğəmbərlər yalnız vəhyi qəbul edib düzgün şəkildə çatdırmaqda xətadan və günahdan qorunmuşdurlar. Risalətdən kənar fərdi həyatlarında isə – istər peyğəmbərlikdən əvvəl, istərsə də peyğəmbərlik dövründə – məsum olmamaları mümkün hesab edilir.

**Günah** və onun imana təsiri məsələsində isə tarixdə müxtəlif yanaşmalar mövcud olmuşdur. Xəvaric cərəyanı böyük günah edən müsəlmanın imanının aradan getdiyini bildirib, onu kafir sayırdı. Onların əks mövqeyində dayanan Mürciə isə günahın insanın imanına heç bir təsir göstərmədiyi qənaətində idi. İndi bu cərəyanlar olmasa da mübahisəni başladan bunlar olub.

Əşəriyyə və Maturidiyyə məktəblərinin mövqeyi bu məsələdə bir-birinə yaxındır. Onlar böyük günahın imana xələl gətirdiyini qəbul edir, lakin belə şəxsləri imandan çıxmış saymır və onları “fasiq mömin” adlandırırlar.

Əsəriyyə (Əhli-hədis) isə günahın imanı azaltdığını bildirir və günah edən möminləri “naqis imanlı” hesab edir.

Mötəzilə böyük günah edən şəxsi nə mömin, nə də kafir sayır; onu “iki mövqe arasında bir mövqe”də qiymətləndirir. Onların fikrincə, əgər belə bir şəxs tövbə etmədən vəfat edərsə, axirətdə əzaba düçar olacaq və onun əzabı kafirin əzabından da ağır ola bilər.

İbadiyyə böyük günah edən şəxsi dünyada mömin kimi qəbul etsə də, tövbəsiz vəfat edərsə axirətdə əbədi cəhənnəmdə qalacağını bildirir. Mötəzilə ilə İbadiyyə təqribən yaxın mövqedədir.

İmamiyyə isə böyük günah edən şəxsi "günahkar mömin" adlandırır. Bu yanaşmaya görə, günah imanı zəiflədir, lakin insanı dindən çıxarmır. Əgər şəxs tövbə etmədən vəfat edərsə, axirətdə cəza görə bilər, lakin əbədi olaraq cəhənnəmdə qalmaz.

**Ədalət** və ilahi ədl mövzusu kəlam elminin ən mühüm məsələlərindəndir. Bəzən digər etiqadi mövzularda qəbul edilən prinsiplər burada müəyyən uyğunsuzluqlar yarada bilir, baxmayaraq ki, bütün məktəblər Allahı ədalətli hesab edir.

Müzakirə əsasən bu suallar ətrafında formalaşır: Allah zülm edərmi? Allahdan şərr hasil olarmı? Şərr Allah tərəfindən yaradılarmı?

Əşəriyyə məktəbinə görə Allahın etdiyi hər şey ədalətdir. Şərr də daxil olmaqla bütün varlıqlar Allah tərəfindən yaradılmışdır. Maturidiyyə də ümumilikdə Əşəriyyəyə yaxın mövqe tutur, lakin bəzi incə fərqlərlə insanın məsuliyyətini vurğulayır.

Mötəzilə isə Allahın zatən ədalətli olduğunu, zülm etməyəcəyini və şərr yaratmayacağını bildirir. Onlara görə zülm və şərr bəndələrin öz iradə və seçimlərinin nəticəsidir. İbadiyyə isə Allahın zülm etmədiyini və ədalətli olduğunu bildirir; şərr əməllər bəndələrin öz seçimlərinin nəticəsidir. Bu məsələdə İmamiyyə, Mötəzilə və İbadiyyənin mövqeyi böyük ölçüdə üst-üstə düşür.

Əsəriyyə (Əhli hədis) məktəbinə görə Allahın etdiklərinin mahiyyəti insan tərəfindən dərk edilə bilməz. Allah zülm etməz və ədalətlidir, lakin bütün varlıqlar – o cümlədən şərr kimi qəbul edilən varlıqlar – Onun yaratmasıdır.

**Ağıl** yaxşı və pisi müəyyən edə bilərmi, bu sualın cavabı əsas kəlami mövzulardan biridir. Bu mühüm mübahisə ağılın müstəqil şəkildə yaxşı və pisi dərk edib-edə bilməməsi ilə bağlıdır. Tam mövzu bu suallın cavabındadır: ağıl özü əxlaqi dəyərləri – yaxşı və pisi, ədalət və zülmü – müəyyən edə bilərmi, yoxsa bunu yalnız şəriət (Quran və hədis) müəyyən edir? Bu məsələ birbaşa ilahi ədalət anlayışı ilə bağlıdır.

Əşəriyyəyə görə yaxşı və pisi müəyyən edən yalnız şəriətdir. Ağıl müstəqil meyar ola bilməz. Quran və hədis yalnız bunu müəyyan edə bilər.

Əsəriyyə (Əhli hədis) fitri olaraq bəzi şeylərin dərkini mümkün saysa da, əməl üçün mütləq şəriətin hökmünü əsas götürür. Yəni ağılın dərk edib-etməməsi əsas deil.

Mötəzilə və İmamiyyə ağılın yaxşı və pisi müstəqil şəkildə müəyyən edə bildiyini qəbul edir. Onlara görə əxlaqi dəyərlər ağıl vasitəsilə dərk oluna bilər və bu, şəriətlə ziddiyyət təşkil etmir. Maturidiyyə və İbadiyyə də bu məsələdə ümumilikdə Mötəzilə və İmamiyyəyə yaxın mövqe nümayiş etdirirlər.

**Məntiq** problemi, yəni fəlsəfi dəlillərə, kəlam elminə və məntiqi araşdırmalara münasibət məsələsi özü də ayrıca bir ixtilaf mövzusudur.

Bu məktəblərin hamısı "kəlam məktəbləri" adlandırılsa da, onların kəlama, kəlam elminin əsasını təşkil edən metodlara, həmçinin fəlsəfi dəlillərə və məntiqi təhlilə münasibətləri bir-birindən fərqlənir, bəzisi heç kökündən qəbul etmir.

Məsələn Əsəriyyə (Əhli hədis) kəlam metodunu ümumilikdə qəbul etmir, fəlsəfəyə mənfi yanaşır və Allahın varlığını və sifətlərini məntiq yolu ilə sübut etməyi uyğun saymır. Onlar etiqadı əsasən nəqlə – Quran və hədisə – söykənərək formalaşdırırlar. Əsəriyyədə ümumiyyətlə kəlam elmi yoxdur.

Əşəriyyə az miqdarda, Maturidiyyə bir qədər artıq ağıl və məntiqdən, fəlsəfi dəlillərdən əsasən etiqadı müdafiə etmək məqsədilə istifadə edirlər. Fəlsəfəyə isə tənqidi və məhdud yanaşırlar. İbadiyyə ağıl və məntiqi sübutlara orta mövqe ilə yanaşır, fəlsəfəyə isə ehtiyatlı münasibət göstərir.

Mötəzilə və İmamiyyə isə ağıl və məntiqi sübutlara geniş yer verirlər. Mötəzilə fəlsəfəyə nisbətən açıq yanaşsa da, İmamiyyədə fəlsəfə daha sistemli şəkildə inkişaf etmiş və hətta Quran və hədisin şərhində mühüm rol oynamışdır.

**Təqiyyə** mövzusu əslində etiqadi deyil, fiqhi məsələdir. Buna görə də o, əsasən kəlam məktəbləri arasında deyil, İslamda mövcud olmuş və bu gün də mövcud olan fiqh məzhəblərində müzakirə edilir. Bunlara Hənəfi, Maliki, Şafei, Hənbəli, İbadi, Cəfəri, Zeydi və İsmaili fiqh məktəbləri daxildir.

Lakin bu məsələ tarix boyu geniş müzakirə olunduğu üçün zamanla müəyyən dərəcədə etiqadi çalar da qazanmış və kəlam çərçivəsində də müzakirə edilən mövzulardan birinə çevrilmişdir.

Təqiyyə, mömінin canı, namusu, abrı, malı və ya həyatı ciddi təhlükə ilə qarşılaşdığı zaman öz həqiqi etiqadını açıq şəkildə ifadə etməyib gizlətməsi mənasını daşıyır.

İmamiyyə etiqadında təqiyyə açıq şəkildə qəbul olunur və müəyyən hallarda dini baxımdan əsaslı sayılır.

Əşəriyyə və Maturidiyyə də bu anlayışı məhdud çərçivədə qəbul edirlər. Mötəzilə və İbadiyyə mənbələrində bu məsələ əsasən ayrıca etiqadi mövzu kimi müzakirə olunmamışdır; çünki onlarda təqiyyə sırf fiqhi məsələ kimi qiymətləndirilir.

Əsəriyyə (Əhli hədis) məktəbi təqiyyəni tənqid etsə də, zərurət hallarında məhdud şəkildə qəbul edildiyi hallar mövcuddur. Müzakirələrin kəskinləşməsi əsasən bu mühitdə baş vermişdir. Əsəriyyə (Əhli hədis) daxilində çıxış edən, lakin müəyyən yenilikçi yanaşmaları ilə seçilən İbn Teymiyyə bu mövzuda sərt etirazlar irəli sürmüşdür. Onun tənqidləri daha çox İmamiyyə məktəbinə yönəlmişdi. Bunun nəticəsində də təqiyyə məsələsi polemik və etiqadi mübahisə mövzusuna çevrilmişdir.

Bununla belə, bu gün təqiyyəni tənqid edən bəzi çevrələrdə də onun zərurət halında məhdud şəkildə mümkünlüyü qəbul edilir.

**Bidət** məsələsi əsasən “bidət nədir?” sualına verilən cavabla bağlıdır və bu anlayış kəlam məktəblərində fərqli şəkildə şərh olunur. Bundan əlavə, bəzi məktəblər Quranın təvil və təfsirini də bidət kontekstində müzakirə etmişlər.

Əşəriyyə və Maturidiyyə məktəblərinə görə bidət – dində olmayan bir şeyi dinə daxil etməkdir. Lakin onlar bidəti “yaxşı” və “pis” olmaqla iki yerə ayırırlar. Yaxşı bidət – dinin əsaslarına zidd olmayan və ona zərər verməyən yeniliklərdir. Pis bidət – dinin əsaslarına zidd olan və onu təhrif edən yeniliklərdir.

Əsəriyyə (Əhli-hədis) isə Quran və Sünnədə, eləcə də Peyğəmbər dövründə mövcud olmayan hər bir dini yeniliyi bidət və yolverilməz sayır. Onlar Quranın təvilini qəbul etmirlər və bunu bidət hesab edirlər. Təfsirə isə Quran və Sünnə çərçivəsində icazə verirlər, lakin onu geniş fəlsəfi və məntiqi yozumlarla əsaslandırmağı düzgün hesab etmirlər.

Mötəziləyə görə ağıl, tövhid və ədalət prinsipləri çərçivəsində ortaya çıxan yeniliklər bidət sayılmır. Təfsir qəbul olunur, təvil isə ağlın nəticəsi kimi zəruri hesab edilir.

İbadiyyə Quran və Sünnəyə uyğun olan yenilikləri bidət saymır. Təfsir qəbul edilir, təvil isə konkret və əsaslı dəlillərə söykənməlidir.

İmamiyyəyə görə dinə Quran və Sünnəyə zidd olan hər hansı yeniliyin gətirilməsi bidətdir. Dində olmayan bir şeyi din adı ilə təqdim etmək qadağandır. Lakin zaman keçdikcə ortaya çıxan yeni məsələlər, əgər Quran və Sünnəyə zidd deyilsə və mötəbər dəlillərlə əsaslandırılırsa, qəbul oluna bilər.

Quranın təfsiri dəlil və sübut əsasında aparılmalıdır; şəxsi rəyə əsaslanan və sübutsuz şərh bidət hesab edilir. Təvil isə İmamiyyə baxışına görə xüsusi səlahiyyət tələb edən bir məsələdir. Bu anlayışa əsasən, Quranın batini və dərin mənalarının tam şəkildə açıqlanması ilk növbədə Peyğəmbərə və onun pak Əhli-beytinə məxsusdur.

Bu çərçivədə Məhəmməd, onun qızı Fatimə Zəhra, Əli ibn Əbu Talib, İmam Həsən, İmam Hüseyn və onun nəslindən olan daha doqqquz məsum imam təvil məsələsində xüsusi mövqeyə malik hesab edilir. Bu yanaşmaya görə, Quranın dərin mənalarının tam dərk olunması onların izahı ilə mümkündür.

**Mütəşabih**, yəni mənası birbaşa və açıq şəkildə bəlli olmayan, çoxqatlı və ya oxşar mənalara ehtimal verən ayələr – kəlam məktəblərində geniş müzakirə olunmuşdur. Bu mövzu ilə əlaqədar olaraq Quranda məcazın (metaforik ifadənin) olub-olmaması məsələsi də gündəmə gəlmişdir.

Quran ərəb dilində nazil olmuşdur və ərəb dilində məcazi ifadələr mövcuddur. Kəlam məktəblərinin böyük əksəriyyəti Quranda məcazi ifadələrin varlığını qəbul etmişdir. Lakin Əhməd ibn Hənbəl və sonradan İbn Teymiyyə məcaz anlayışını qəbul etməmişlər. Onların xətti Əsəriyyə (Əhli-hədis) məktəbinə görə Quranda məcazi ifadə yoxdur; bütün ifadələr həqiqi mənadadır. Sonda bura bir də qayıdacağıq.

Quranda mütəşabih ayələrin mövcudluğu isə mübahisə mövzusu deyil, çünki Quran özü ayələri "möhkəm" və "mütəşabih" olaraq iki qismə ayırır. Lakin bu ayələrin necə başa düşülməsi məsələsində fərqli yanaşmalar ortaya çıxmışdır.

Əşəriyyə mütəşabih ayələrin qəti mənasını Allaha həvalə etməyi (təfviz) üstün tutur. Yəni mütəşabih ayə qəbul edilir, lakin onun həqiqi mənasını yalnız Allah bilir.

Maturidiyyə mütəşabih ayələrin ağla və tövhid prinsipinə uyğun şəkildə mənalandırılmasını mümkün sayır. Xüsusilə Allahın "əli", "vəchi" kimi ifadələrinin cismani anlamda başa düşülməsini qəti şəkildə rədd edir və bu kimi ayələrdə təvili zəruri hesab edir.

Mötəzilə və İbadiyyə mütəşabih ayələrin ağıl əsasında təvil olunmasını qəbul edir və antropomorfik (insana bənzətmə) anlayışları rədd edirlər.

Mütəşabih ayələrin təvilinə qarşı çıxan, Allahın "əli", "vəchi" və oxşar ifadələri zahiri və həqiqi mənada qəbul edən, lakin onların "necəliyinin" (keyfiyyətinin) bilinmədiyini bildirən əsas məktəb isə Əsəriyyə (Əhli hədis) məktəbidir. Onların fikrincə, Quranda məcaz yoxdur; mütəşabih ifadələr zahiri mənada doğrudur, lakin bu mənanın keyfiyyəti insan idrakına məlum deyil. Yəni "Allahın əli" ifadəsində

həqiqi mənada "əl" nəzərdə tutulur; bu, məcazi şəkildə "qüdrət" kimi yozulmur. Lakin həmin "əlin" necəliyi və mahiyyəti insan tərəfindən bilinməz və dərk edilə bilməz.

İmamiyyənin mövqeyi isə mərhələli yanaşma ilə seçilir. Onlara görə mütəşabih ayələr əvvəlcə digər ayələr (Quranın öz daxili izahı) vasitəsilə açıqlanmalıdır. Daha sonra mötəbər hədislərə müraciət olunur. Bu mərhələlərdən sonra isə ağıl vasitəsilə uyğun təvil mümkündür.

**Mətn** mövzusu - dini mətnlərin anlaşılması problemi**,** bu da əsas kəlami mövzudur. Mətnin (ayət və hədislərin) necə başa düşülməsi məsələsi kəlam məktəbləri arasında ciddi fərqlilik yaratmışdır. Burada əsas sual budur: dini mətnlər yalnız zahiri (literal) mənada anlaşılmalıdır, yoxsa dəlil və sübut əsasında qeyri-zahiri məna da verilə bilər? Yaxud mətn sırf ağıl vasitəsilə şərh oluna bilərmi?

Əsəriyyə (Əhli-hədis) yalnız zahiri və literal mənalandırmanı qəbul edir. Onlara görə mətn necə gəlibsə, elə də qəbul edilməlidir, təvil qəbul edilmir.

Əşəriyyə, Maturidiyyə və İbadiyyə məhdud çərçivədə qeyri-literal mənalandırmaya da yer verirlər. Lakin bu məktəblər arasında da fərq vardır, xüsusilə Maturidiyyə ağlın roluna daha geniş yer ayırır.

Mötəzilə isə zahiri literal mənanı kifayət hesab etmir və ayə və hədislərin əsasən ağıl prinsipləri əsasında mənalandırılmasını müdafiə edir.

İmamiyyə isə burda da mərhələli yanaşmanı qəbul edir: Əgər mətn zahiri mənada aydın və tamdırsa, həmin məna kifayət edir. Əgər zahiri məna kifayət etmirsə, digər ayə və hədislər vasitəsilə izah olunur. Əgər bu yollarla da məna tam açıqlanmırsa, o zaman ağla müraciət edilir.

Əslində bu yanaşma əvvəlki bölmədə qeyd olunmuşdu; burada isə ümumi şəkildə İslam mətnlərinə tətbiqi baxımından bir daha vurğulanır. Beləliklə, dini mətnlər – ayələr və hədislər Əsəriyyə (Əhli-hədis) məktəbinin əqidəsinə görə yalnız zahiri (literal) mənada əsas götürülür. Təvil yolverilməz hesab edilir, təfsir (şərh) isə məhdud çərçivədə qəbul olunur.

Digər kəlam məktəbləri isə müəyyən şərtlər daxilində təvil və təfsiri icazəli hesab edirlər; bu barədə təfsilat yuxarıda qeyd olunmuşdur. Qısa olaraq terminləri bir daha aydınlaşdıraq: Təvil – mənalandırma deməkdir. Xüsusilə Qurandakı mütəşabih (mənası açıq olmayan və ya çoxqatlı) ayə və ifadələrin, o cümlədən hədislərin dərin və batini mənasının açıqlanmasına deyilir. Təfsir – şərh etmək deməkdir; ayələrin və hədislərin zahiri, lüğəvi və kontekstual mənalarının izahını ifadə edir. Bu baxımdan təvil daha dərin və fəlsəfi məna qatına yönəlmiş izah forması hesab olunur.

**Şəfaət** mövzusu da mühüm kəlam məsələlərindəndir. İxtilaf şəfaətin mövcudluğunda deyil, onun mahiyyəti və əhatə dairəsindədir. Şəfaət Quranda təsdiqlənmişdir və əslində Allaha məxsusdur; Allah isə bu izni istədiyi şəxslərə verir.

Əşəriyyə və Maturidiyyə bu qənaətdədir ki, şəfaət Allaha məxsusdur və Onun izni ilə Peyğəmbərə və ümmətin saleh və böyük şəxsiyyətlərinə də aid ola bilər. Əsəriyyə isə şəfaəti Allaha və Onun izni ilə yalnız Peyğəmbərə aid edir.

Mötəzilə "vəd və vəid" (Allahın mükafat və cəza vədlərinin dəyişməzliyi) prinsipini əsas götürür. Onlara görə, əgər Allah günahkar üçün cəza vəd etmişdirsə, bu ədalət baxımından dəyişməzdir. Buna görə də şəfaət günahkarların bağışlanması mənasında deyil, möminlərin dərəcələrinin yüksəldilməsi mənasında başa düşülür. Günahkar olaraq dünyadan gedənlər üçün şəfaəti qəbul etmirlər.

İbadiyyə bu mövqeyə yaxındır: şəfaəti qəbul edir, lakin onun günahkar olaraq vəfat edənlərə şamil olunmadığını bildirir. Şəfaətin Allaha və Onun izni ilə Peyğəmbərə aid olduğunu qəbul edirlər.

İmamiyyə isə şəfaətin daha geniş anlamda olacağına inanır. Bu baxışa görə, Allah həm ədalətli, həm də mərhəmətlidir və şəfaət Onun mərhəmətinin təzahürüdür; bu isə ədalətə zidd sayılmır. Şəfaət Allahın izni ilə Peyğəmbərə, məsum imamlara və digər saleh bəndələrə də aid ola bilər. Şəfaət məhz günahkar möminlərin Allahın mərhəməti ilə bağışlanmasına vasitəçilik anlamını daşıyır.

**Rüyətullah** yəni Allahın axirətdə gözlə görülüb-görülməyəcəyi – kəlam məktəbləri arasında geniş müzakirə olunmuş mövzulardandır.

Əsəriyyə (Əhli-hədis) etiqadına görə Allah qiyamət günü möminlər tərəfindən görülə bilər, lakin bunun necə baş verəcəyi (keyfiyyəti) indi bilinməz.

Əşəriyyə və Maturidiyyə də ümumilikdə bu mövqeyə yaxın dayanır və rüyətullahı qəbul edirlər, lakin keyfiyyətini Allahın elminə həvalə edirlər.

Mötəzilə, İmamiyyə və İbadiyyə isə bu məsələdə qəti şəkildə "xeyr" mövqeyindədirlər. Onlara görə Allah cism deyil və məkanla məhdudlaşmaz; buna görə də gözlə görülməsi mümkün deyil. Allahı yalnız qəlb və idrak vasitəsilə tanımaq mümkündür.

**Allahın zatı** məsələsi dinlərdə əsasən ayə və hədis çərçivəsində tanınır və bu çərçivədən kənara çıxılmır. İlahi zatın mahiyyəti barədə artıq və detallı

müzakirələrə girmək uyğun sayılmır; çünki zatın həqiqəti insan idrakı üçün əlçatmaz hesab edilir.

Lakin Allahın sifətləri məsələsi geniş müzakirə olunmuşdur. Çünki, insanlar Allahın zatını birbaşa deyil, məhz Onun sifətləri vasitəsilə tanıyırlar. Bu səbəbdən Allahın zatı ilə sifətləri arasındakı münasibət kəlam elminin əsas mövzularından birinə çevrilmişdir. Bu bölmədə əsas sual belə formalaşır: Allahın sifətləri zatın eynidirmi, yoxsa zatdan ayrıdır?

Məhz bu suala verilən cavablara görə kəlam məktəblərinin etiqadları bir-birindən ayrılır və müxtəlif nəzəri istiqamətlər meydana çıxır.

Əşəriyyə bu məsələdə xüsusi bir mövqe tutur. Onlara görə sifətlər nə zatın eynidir, nə də zatdan tam ayrıdır. Yəni sifətlər zatla birlikdə mövcuddur, lakin zatın tərkib hissəsi kimi başa düşülmür. Bu, kəlam tarixində ən çox müzakirə olunan nəzəriyyələrdən biridir. Maturidiyyə və Əsəriyyə də ümumilikdə bu mövqeyə yaxın dayanırlar və sifətləri zatdan tam ayrı sayırlar.

Mötəzilə, İbadiyyə və İmamiyyə isə Allahın sifətlərini zatın eyni hesab edirlər. Onlara görə sifətlərin zatdan ayrıca mövcudluğunu qəbul etmək çoxluq və tərkib anlamına gələ bilər ki, bu da tövhid prinsipinə uyğun sayılmır.

**İradə** - insan iradəsi (cəbr, təfviz və orta yol) kəlam məktəbləri arasında ən əsas mübahisə mövzularındandır. Sual belədir: insan əməllərində məcburdurmu (cəbr), tam sərbəstdirmi (təfviz), yoxsa bu ikisi arasında orta bir mövqe mövcuddur (əmrun beynəl-əmreyn)?

Bu gün heç bir əsas kəlam məktəbi açıq şəkildə insanın tam məcbur olduğunu iddia etmir. Hətta tarixən İmam Cəfər Sadiq tərəfindən sistemləşdirilən "əmrun beynəl-əmreyn" (iki mövqe arasında orta yol) nəzəriyyəsi dolayısı ilə bir çox məktəblərdə öz əksini tapmışdır.

Əşəriyyə tarixən "cəbri meylli" kimi tanınmışdır. Onlar "kəsb" nəzəriyyəsini irəli sürərək bildirirlər ki, əməlləri yaradan Allahdır, insan isə həmin əməli "kəsb edir" (mənimsəyir). Lakin bu yanaşma faktiki olaraq insan iradəsinin müstəqilliyini məhdudlaşdırır. Ona görə qədimdən əşərilərə "cəbriyyun", "əhli cəbr" deyirlər.

Əsəriyyə (Əhli hədis) də zahirdə cəbriliyi açıq şəkildə müdafiə etməsə də, insan iradəsini müstəqil və yaradıcı qüvvə kimi qəbul etmir.

Mötəzilə və İbadiyyə isə insanı öz əməllərində tam məsul və müstəqil hesab edir və insanın əməlini birbaşa özü ilə əlaqələndirirlər.

Maturidiyyə bu məsələdə İmamiyyəyə daha yaxın mövqedədir. Bu yanaşmaya - "əmrun beynəl-əmreyn" (iki mövqe arasında orta yol) nəzəriyyəsinə görə, Allah insana qüdrət və imkan verir; insan isə Allahın izni ilə seçim edir və bu seçimdə ixtiyar sahibidir. Əgər insanın seçimi saleh əmələ yönələrsə, Allah ona əlavə yardım edir. Lakin seçim yenə də insana aiddir.

Bu nəzəriyyə - "əmrun beynəl-əmreyn" (iki mövqe arasında orta yol) nəzəriyyəsi nə cəbr, nə də tam təfvizdir; hər ikisi arasında orta bir yoldur. Bu baxımdan "alın yazısı" anlayışı da Allahın insanın gələcəkdə öz ixtiyarı ilə edəcəyi seçimləri öncədən bilməsinə (ilahi elmə) işarə edir. Bu, insanın məcbur edilməsi demək deyil. Buna görə də İslam dini "alın yazısı", "qismət", "bəxt" məsələlərini qəbul etmir. Qəza və Qədər məsələləri də məhz bu yolla izah olunur.

**Təvəssül,** istiğasə və təbərrük mövzuları İslam düşüncəsində ən çox müzakirə olunan məsələlərdəndir. Bu anlayışlar ümumilikdə bəndə ilə Allah arasında vasitə məsələsi ilə bağlıdır. Sual belə formalaşır: İnsan Allahla özü arasında vasitə qərar verə bilərmi?

Məsələ burasındadır ki, Peyğəmbər və digər saleh bəndələrin – yuxarıda qeyd edildiyi kimi – qiyamətdə Allahın izni ilə şəfaət edəcəkləri qəbul olunur. Bu halda sual yaranır: insan dünyada da Allahdan istədiyini bu saleh şəxsləri vasitə qərar verərək istəyə bilərmi?

Əşəriyyə və Maturidiyyə bu məsələdə bir-birinə yaxın mövqedədir. Onlara görə insan istər diri, istərsə də vəfat etmiş saleh şəxsləri vasitə qərar verə bilər, lakin şərt budur ki, əsas və müstəqil təsir sahibinin Allah olduğunu dərk etsin. Yəni istənilən neməti verən Allahdır; vasitələr isə səbəb rolunu oynayır. Necə ki, Allah insanın canını mələk vasitəsilə alır, eyni şəkildə dünyada ilahi qanunauyğunluq səbəblər üzərindən işləyir.

Mötəzilə və İbadiyyə mənbələrində bu məsələyə qəti qadağa qoyulmamışdır, açıq şəkildə şirk sayılması mövqeyi yoxdur.

Əsəriyyə (Əhli hədis) isə təvəssülü bu formada qəbul etmir və onu bidət, hətta şirk kimi qiymətləndirir.

İmamiyyə isə təvəssülü etiqadi baxımdan qəbul edir. Onlara görə, Quran və Sünnədə mövqeyi müəyyən olunmuş peyğəmbərlər, imamlar və saleh bəndələr vasitə qərar verilə bilər – istər diri, istər vəfat etmiş olsunlar. Lakin burada əsas prinsip dəyişmir: müstəqil və həqiqi təsir sahibi yalnız Allahdır. Vasitəni "əsas" saymaq şirk hesab olunur və İslam etiqadına ziddir.

**Ziyarət** – vəfat etmiş müqəddəs şəxslərin və doğmaların qəbirlərini ziyarət etmək də müzakirə olunan mövzulardandır. Əşəriyyə, Maturidiyyə, Mötəzilə və İbadiyyə ziyarəti əsasən mümkün hesab edir, əsas şərt isə şirkdən uzaq olmaqdır. Bu, ümumilikdə İslamın əsas prinsipidir.

Əsəriyyə (Əhli hədis) daxilində isə fərqləndirmə aparmaq lazımdır. Əhməd ibn Hənbəl Peyğəmbərin və saleh şəxslərin qəbrini şirkə yol vermədən ziyarət etməyi icazəli saymışdır. Lakin sonradan İbn Teymiyyə bu mövzuya daha sərt yanaşaraq ziyarətin müəyyən formalarını şirk kimi qiymətləndirmişdir.

İmamiyyə isə peyğəmbərləri, imamları, şəhidləri və saleh alimləri vəfatdan sonra ziyarət etməyi tövhidə zidd saymır, əksinə, Allahın müqəddəs bildirdiyi şəxslərə ehtiramın ifadəsi kimi qəbul edir. Qəbir, ziyarətgah mövzuları da bu qəbildəndir.

**Səhabə** – Peyğəmbəri görmüş və ona iman gətirmiş şəxsdir. Müzakirə mövzusu budur ki, bütün səhabələr sorğusuz-sualsız ədalətli qəbul edilməlidirmi?

Əşəriyyə, Əsəriyyə (Əhli hədis) və Maturidiyyə səhabələri ümumilikdə ədalətli və toxunulmaz hesab edir, səhabələr aralarındakı ixtilafları isə ictihad fərqi kimi qiymətləndirir. Peyğəmbərdən sonra baş vermiş münaqişələri də bu çərçivədə dəyərləndirirlər.

Mötəzilə və İbadiyyə isə səhabələri sorğusuz qəbul etmir və onların əməllərinin dəyərləndirilə biləcəyini bildirirlər.

İmamiyyə isə Məhəmməd peyğəmbər və onun pak Əhli-beytini – Əli ibn Əbu Talib, Fatimə Zəhra, Həsən ibn Əli və Hüseyn ibn Əli və onun nəslindən doqquz seçilmiş imamı məsum hesab edir. Digər səhabələrin isə ədalətli olub-olmamasının araşdırıla biləcəyini qəbul edir. Quranda münafiqlər haqqında ayələrin nazil olması faktı da bu yanaşmada əsas kimi göstərilir.

**Etiqadi ixtilaflar**

Kəlam məktəbləri arasındakı fərqli inanc mövqeləri etiqadi ixtilaflar kimi qiymətləndirilir. Fiqh sahəsində ixtilaflar daha çox olsa da, kəlam elmində də əsas mübahisəli mövzular geniş şəkildə müzakirə olunmuşdur.

Bu yazı çərçivəsində əsas ixtilaf mövzuları başlıqlar şəklində ümumi şəkildə təqdim edildi. Dəlil və sübutlar burada ətraflı verilmədi. Çünki bu yazı tanışlıq xarakterlidir. Daha geniş elmi əsərlərdə hər bir kəlam məktəbi öz etiqadına uyğun dəlil və arqumentlərini geniş şəkildə təqdim edir.

**Mənbələr**


1. Əl-Miləl vən-Nihəl – Şəhristani.
   İslam və qeyri-İslam firqələri haqqında sistemli klassik mənbə.
2. Şərh əl-Usul əl-Xəmsə – Qazi Əbdül-Cəbbar.
   Mötəzilə kəlamının beş əsas prinsipinin izahı.
3. Məqalat əl-İslamiyyin – Əbu əl-Həsən əl-Əşəri.
   Erkən dövr firqələrinin etiqadi görüşlərinin təsnifatı.
4. Əl-Fərq beyn əl-Firəq – Əbdülqahir əl-Bağdadi.
   İslam firqələri arasındakı fərqlərin sistemli təqdimatı.
5. Əl-İqtisad fil-İtiqad – Əbu Həmid əl-Qəzali.
   Əşəri kəlamının rasional əsaslandırılması.
6. Əvail əl-Məqalat – Şeyx Müfid.
   Erkən İmamiyyə etiqad sisteminin əsas prinsipləri.
7. Firaq al-Shia – Həsən ibn Musa ən-Nöbəxti.
   Şiə firqələrinin tarixi və doktrinal təsnifatı.
8. Əl-İqtisad fi ma yətəalləqu bil-İtiqad – Şeyx Tusi.
   İmamiyyə kəlamının sistemli şərhi.
9. Buhusun fil-Milal wan-Nihal – Cəfər Sübhani.
   Müasir dövrdə firəq və kəlam məktəblərinin analitik təhlili.



**İlahiyyatçı: Namiq Babaxanov**


**Bakı - 2026**